Xalqın qəzeti!

# Xalq qəzeti

№ 126 (30820) 21 iyun 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan qardaş Özbəkistanla çoxsaylı önəmli layihə tərəfdaşıdır

*Prezident İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul edib.**



Dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfərinin ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Azərbaycanla Özbəkistanın çox sayda birgə layihələr həyata keçirdiyini məmnunluqla vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bu, bütün sahələrdə əlaqələrimizin sıx dostluq xarakteri daşımasının göstəricisidir.

Qəbula görə minnətdarlığını bildirən Laziz Kudratov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq qeyd etdi ki, Özbəkistan dövlətinin başçısı qardaş Azərbaycana nəzərdə tutulan səfərinə hazırlaşır və bu səfəri konkret praktiki məzmunla zənginləşdirmək üçün hökumətə tapşırıqlar verib.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, ötən il Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri zamanı iki ölkənin prezidentlərinin qarşıya qoyduqları yeni prioritet istiqamətlər üzrə fəal iş aparılır.

Görüşdə iqtisadi-ticari əlaqələrin inkişafı məmnunluqla vurğulandı, sənaye kooperasiyası, nəqliyyat, logistika əlaqələrinin daha da genişləndirilməsi və yeni birgə layihələr barədə fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Sülh qatarı son dayanacağa çatacaqmı?

## Paşinyan–kilsə savaşında yeni toqquşma



səhifə ⇨ 4

## Samvel, Ruben və Solovyov



səhifə ⇨ 7

səhifə ⇨ 7

## "Sülh zəngulələri" gerçəkliyin hay-küyü, barışın yamsılanmasıdır

*Ermənistan şərtlərimizi qəbul etməlidir!*




**Ermənistan Azərbaycanla sülh müqaviləsini indi imzalamağa hazırdır. Belə bir fikri Ermənistan baş nazirinin müavini Mher Qriqoryan Peterburq Beynəlxalq İqtisadi Forumundakı çıxışında deyib. Amma məsələ bunda deyil. Çünki oxşar tezisi indiyədək rəsmi İrəvanın digər təmsilçiləri, o cümlədən xarici işlər naziri Ararat Mirzoyan, ən əsası isə baş nazir Nikol Paşinyan dəfələrlə vurğulayıb. Yəni, boş sözlərə qarnımız toxdur. İndi isə bir qədər konkretləşdirək.**

Əvvəla, Ermənistan rəsmilərinin ölkələrinin Azərbaycanla sülh müqaviləsini imzalamağa hazır olduqlarını nə üçün təkrarladıqlarından söz açaq. Əlbəttə, məlumdur ki, sözügedən barış sazişinin bütün bəndləri razılaşdırılıb və bu, müsbət məqamdır. Ancaq proses heç də rəvan keçməyib. Məsələn, 17 maddəlik sülh müqaviləsinin əvvəl 13, sonra 15 bəndi üzrə ortaq məxrəcə gəlinib. Hər dəfə də Paşinyan hakimiyyəti elə fon yaradıb ki, guya, sülh sazişi imzalanmağa tam hazırdır. Belə yanaşma reallıqların təhrifindən, sülhün imitasiyasından başqa bir şey olmayıb.

ardı səhifə ⇨ 4

# Fatehlərin qürur tablosu




*Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsi çağdaş Türk qardaşlığı əfsanəsidir*

**Hər gələn gün Türkiyə–Azərbaycan qardaşlığından yeni və xoş soraqlar gətirir. Dünyada tayı-bərabəri olmayan iki xalq arasında ən ali münasibətlərin əyani sübutlarının sayı yüzü, mini çoxdan keçib. Bu tarixi günləri müjdələyənlərin kimliyinə diqqət yetirsək, görərik ki, təəccüblü heç nə baş vermir. Onlar bugünün reallığını 30 il bundan əvvəl görürdülər. Ümummilli lider Heydər Əliyevin hələ ötən əsrin sonlarında dediyi "Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Heç bir qüvvə, kimsə, heç bir ölkə Türkiyə–Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olaraq qalacaqdır" sözlərinin öz təsdiqini əyani tabloda tapmasına şahidlik etməyin özü tarixi şans, tale qismətidir.**

ardı səhifə ⇨ 5

## Diplomatik korpusun nümayəndələri Laçında



səhifə ⇨ 5

## Cəlal Ünsizadənin "Kəşkül"ü və Türkiyə həyatı


КЕШКУЛЪ
ЕЖЕМѢСЯЧНЫЙ ЛИТЕРАТУРНЫЙ и ПОЛИТИЧЕСКІЙ ЖУРНАЛЪ
НА ТАТАРСКОМЪ, ПЕРСИДСКОМЪ И АРАБСКОМЪ ЯЗЫКАХЪ.
ГОДЪ ПЕРВЫЙ.
Январь 1883 г.
№ 1.

səhifə ⇨ 9

## Musiqi insanlığın ruhsal dilidir



səhifə ⇨ 10

# Azərbaycanın Avropaya verdiyi qaz 50 milyard kubmetrə çatdı

Səhifə ⇨ 8

# Prezident İlham Əliyev UFC-nin prezidentini qəbul edib



**İyunun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Ultimate Fighting Championship"in (UFC) prezidenti, amerikalı sahibkar Deyna Uaytı qəbul edib.**



Azərbaycana səfərdən məmnunluğunu ifadə edən Deyna Uayt Bakıda keçiriləcək UFC turnirinə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını vurğuladı və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı UFC turnirinin ölkəmizdə ilk dəfə təşkil edilməsinin əhəmiyyətinə toxundu, onun davamlı olacağına ümidvarlığını bildirdi və bu tədbirin Azərbaycanın dünyada idman ölkəsi kimi daha çox tanıdılması baxımından rolunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanda idmanın bütün növlərinə göstərilən dövlət qayğısından söhbət açıldı, son illərdə idmançılarımızın dünya səviyyəli mühüm yarışlarda qazandıqları uğurlar vurğulandı, gənc nəsildə idmana həvəsin təbliğ edilməsi istiqamətində görülən işlərə toxunuldu.

Görüşdə indiyədək ölkəmizdə nüfuzlu beynəlxalq idman yarışlarının yüksək səviyyədə təşkil edilməsindən məmnunluq ifadə olundu, UFC turnirinin də bu cür keçiriləcəyinə əminlik bildirildi.

# Sahibə Qafarova Gürcüstan parlamentariləri ilə görüşüb



**Milli Məclisin sədri Sahibə Qafarova iyunun 20-də ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin Sektoral iqtisadiyyat və iqtisadi siyasət komitəsinin sədri Şota Berekaşvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Sahibə Qafarova bildirib ki, dostluq və qardaşlıq ənənələrinə söykənən əlaqələrimiz bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Söhbət zamanı Azərbaycanın və Gürcüstanın beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyəti, o cümlədən ərazi bütövlüyü və suverenlik məsələlərində daim bir-birini dəstəkləməsi, həmrəylik nümayiş etdirməsi məmnunluqla vurğulanıb. Qeyd edilib ki, ölkələrimiz regionda həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələrində uğurla əməkdaşlıq edirlər.

İki ölkənin parlamentlərarası münasibətlərindən danışan S.Qafarova deyib ki, qanunvericilik orqanlarımız arasında çox səmərəli əməkdaşlıq mövcuddur. Hər iki ölkənin parlamentində dostluq qrupları uğurla fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament təşkilatlarında bir-birinə dəstək verirlər.

Səmimi görüş üçün təşəkkürünü bildirən Gürcüstan parlamentinin sektoral iqtisadiyyat və iqtisadi siyasət komitəsinin sədri Şota Berekaşvili Azərbaycana səfəri barədə təəssüratlarını bölüşüb, ölkələrimiz arasında tarixi köklərə əsaslanan və bu gün strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələrin əhəmiyyətindən danışıb.

***XQ***

# "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 7-ci kitabı

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 7-ci kitabı çapdan çıxıb.**




Bu kitabda yer alan materiallar 1995-ci il martın 12-dən iyunun 15-dək olan dövrü əhatə edir. Kitaba ulu öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri, məktubları daxil edilib. Nəşrdəki materiallarda Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesindən, ictimai-siyasi, iqtisadi, mədəni həyatın bir çox sahələrindən, xarici ölkələrlə əlaqələrin genişləndirilməsindən bəhs olunur.

1995-ci il martın 12-də ümummilli lider Heydər Əliyev Kopenhagendə sosial tərəqqi naminə yüksək səviyyədə ümumdünya görüşündə iştirak edərək Azərbaycan xalqının haqq səsini bir daha dünyaya bəyan edib. Ulu öndər həmin nitqində BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin kağız üzərində qaldığını bir daha beynəlxalq birliyin diqqətinə çatdıraraq vurğulayıb: "Beynəlxalq birlik münaqişənin həllində müsbət nəticələr əldə etmək üçün öz yüksək nüfuzundan istifadə edib sülh danışıqları prosesinə təsir göstərməlidir". Ulu öndərin nitqinin tam mətni bu kitaba daxil edilib.

Nəşrdə, həmçinin ölkəmizdə dövlət çevrilişinə cəhd və onun qarşısının alınması ilə bağlı Ümummilli liderin 1995-ci il martın 15-də Azərbaycan Televiziyası ilə xalqa müraciətinin, bununla əlaqədar martın 19-da keçirilmiş müşavirədəki nitqinin, habelə Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikinin, o zaman Respublika Günü kimi qeyd olunan 28 May – Müstəqillik Günü münasibətilə keçirilən təntənəli yığıncaqda söylədiyi nitqin mətnləri yer alıb.

Ulu öndər həmin dövrdə gərgin iş qrafikinə baxmayaraq, ölkənin mədəni mühitini də diqqətdə saxlayırdı. 1995-ci il aprelin 16-da Xalq şairi Məmməd Arazın yaradıcılıq gecəsində iştirak etmiş Ümummilli lider tədbirdən sonra ziyalılarla görüşmüşdü. Həmin görüşdə dahi rəhbər xalqın milli oyanışında, milli ruhunun canlanmasında ziyalıların rolunu xüsusi vurğulayaraq demişdi: "Bilirsiniz, milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Bu da asan bir proses deyil. Çox vaxt tələb edən prosesdir. Yaşadığımız o rejim dövründə bu prosesə təkan vermək çətin idi. Ancaq Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılıqları ilə bu sahədə çox işlər görüblər. Ona görə düşündüm ki, biz müstəqillik qazanmışıq, respublikamız müstəqil dövlətdir. Xalqımız milli azadlığını əldə edibdir. Bu milli azadlığın, müstəqilliyin əldə edilməsində, şübhəsiz ki, xalqımızın hamısının - hərənin öz yeri, hərənin öz payı, hərənin öz xidməti var. Ancaq elə şəxsiyyətlər var ki, onlar bu işin, bu prosesin yaranmasında, formalaşmasında, inkişaf etməsində xüsusi xidmətlər göstəriblər və bunlar mədəniyyətimizin, ədəbiyyatımızın, şeirimizin içində olubdur".

Ümummilli lider 1995-ci il mayın 14-də isə görkəmli Azərbaycan yazıçısı və kinodramaturqu Maqsud İbrahimbəyovun 60 illik yubiley gecəsində, habelə həmin il iyunun 10-da böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı müşavirədə iştirak etmişdi. Dahi rəhbərin həmin tədbirlərdəki nitqlərinin mətnləri də kitaba daxil edilib.

Bu cilddə, həmçinin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkənin bazar iqtisadiyyatına keçid dövründə yaranmış çətinliklərin aradan qaldırılması, kənd təsərrüfatının inkişaf etdirilməsinə dair müşavirədəki nitqləri, erməni təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasına, daxili və xarici siyasətin başqa istiqamətlərinə dair materiallara geniş yer verilib.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

***XQ***

## "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il aprelin 23-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 iyun 2025-ci il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Kəmər və Yol" Təşəbbüsünün Birgə Təşviqi üzrə Əməkdaşlıq Planı"nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il aprelin 23-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Kəmər və Yol" Təşəbbüsünün Birgə Təşviqi üzrə Əməkdaşlıq Planı" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Planı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Planının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 iyun 2025-ci il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci il aprelin 30-da Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Küveyt Dövləti Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 iyun 2025-ci il**

# Baş prokuror Gədəbəydə vətəndaşların müraciətlərini dinləyib



**İyunun 20-də Baş prokuror Kamran Əliyev Gədəbəy Rayon Prokurorluğunun inzibati binasında Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonlarından və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 57 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

***XQ***

# Energetika naziri Qusarda qəbul keçirib



**Energetika naziri Pərviz Şahbazov Qusarda vətəndaşların müraciətlərini dinləyib.**

Nazirlikdən bildiriblər ki, Qusar rayon Heydər Əliyev Mərkəzində təşkil edilmiş görüşdə vətəndaşların elektrik şəbəkəsinə qoşulma, elektrik enerjisi və təbii qaz təchizatı, elektrik xətlərinin çəkilişi, qurğu və avadanlıqların istismar vəziyyəti, kabelləşdirmə, enerji təchizatında yaranan fasilələr, işlə təminat, kiçik su elektrik stansiyasının tikintisi ilə bağlı layihə təklifi və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə Quba, Qusar və Xaçmazdan olan 37 vətəndaş iştirak edib.

***XQ***

# MSK-nın iclası



**İyunun 20-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

Əvvəlcə Komissiyanın mayın 30-da keçirilən iclasının protokolu təsdiq olunub.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Aparılan müzakirələrin ardınca 46 saylı Sumqayıt beşinci, 47 saylı Sumqayıt-Abşeron-Qaradağ, 65 saylı Salyan-Biləsuvar-Saatlı, 102 saylı Şəmkir şəhər, 108 saylı Ağstafa və 118 saylı Ağdam-Xocalı seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunmasına qərar verilib.

Media nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin cari məsələlərə də baxılıb.

# 13 yaşlı Zeynəbin "sehrli dünyası"



**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində 13 yaşlı Zeynəb Babayevanın müəllifi olduğu "Zeynəbin sehrli dünyası" adlı sərginin açılışı olub.**



Ekspozisiyada iştirak edənlər arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da olub.

Sərgidə gənc rəssamın təbiətə, heyvanlara, flora və faunaya olan sevgisindən ilham alan əsərləri təqdim olunub. Zeynəb öz əsərlərində gil, kətan sapları, parça kimi təbii materiallardan istifadə edərək onları zəngin daxili aləmi və parlaq təxəyyülünün yaratdığı obrazlara çevirib.

Tədbiri Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səlhəb Məmmədov açıb. O, çıxışında gənc rəssamın işlərini yüksək qiymətləndirib və ona yaradıcılığında uğurlar arzulayıb. Xalq rəssamı ekspozisiyanın müəllifinə xüsusi təkliflə müraciət edib. Onu Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına, heykəltaraşlıq fakültəsinə dəvət edib.

Mərkəzin direktoru Anna İbrahimbəyova çıxışında müəssisənin missiyası haqqında danışaraq bildirib ki, müəssisənin əsas məqsədi gənc müəlliflərə özlərini ifadə etmək üçün şərait yaratmaq, onların yaradıcılıq potensialını inkişaf etdirmək və yeni kəşflərə ruhlandırmaqdır. Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva Zeynəb Babayevanı ilk sərgisi münasibətilə təbrik edib və onun böyük yaradıcılığında parlaq gələcəyinə əminliyini ifadə edib.

Sonda gənc rəssam qonaqların və uşaqların fəal iştirak etdiyi kiçik ustad dərsi keçirib.

*XQ*

# DİN-in Hərbi İnstitutunda məzun günü

**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 2024-2025-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.**



Əvvəlcə ümummilli lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.




Məzunların buraxılış mərasiminin Hərbi İnstitutun həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıran nazir müavini – Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Nazir V.Eyvazov DİN-in əsas struktur qurumlarından olan Daxili Qoşunların yarandığı gündən şərəfli xidmət yolu keçdiyini vurğulayıb, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə, ölkədə sabitliyin, ictimai təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını diqqətə çatdırıb. O, Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən hər zaman nəzarətdə saxlanıldığını, müasir silah və texnika ilə təminatı, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarların qəbul edildiyini vurğulayıb, xüsusi diqqət və qayğının nəticəsi olaraq Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadir olduğunu bildirib.

General-polkovnik V.Eyvazov Ali Baş Komandanın rəhbərliyi altında möhtəşəm Qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının ön cəbhədə qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Hərbi İnstitutun məzunlarının da olmasını bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşmasında əzmkar fəaliyyətin əyani təsdiqi kimi dəyərləndirib.

Daxili işlər naziri Qoşunların peşəkar kadr özəyinin formalaşmasında, şəxsi heyətin döyüş hazırlığında yüksək nəticələr əldə etdiyinə görə Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının roluna xüsusi diqqət çəkib.

Qeyd olunub ki, məzunların həyatında yeni bir dövr başlayır. Bu təhsil ocağında komandir peşəsinə yiyələnməklə liderlik, cəsurluq, fədakarlıq, dürüstlük kimi keyfiyyətlər qazanan, peşələrini sevən, müasir düşüncəyə sahib gənc zabitlər artıq hazırlıqlı və peşəkar hərbçilər kimi Daxili Qoşunların sıralarında xidmətlərini uğurla davam etdirəcək, qoşunların döyüş ənənələrinə sadiq qalacaqlar.

Nazir V.Eyvazov gənc zabitləri, onların valideynlərini və yaxınlarını təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə, zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində uğurlar arzulayıb.

Kursant Çingiz Cəfərli onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına, DİN rəhbərliyinə və Hərbi İnstitutun zabit-müəllim heyətinə minnətdarlığını çatdırıb, hərbçi şərəfini hər zaman uca tutacaqlarını bildirib. Sonra Döyüş Bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Gənc zabit Ç.Cəfərli "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Tədbirin sonunda daxili işlər naziri Hərbi İnstitutu fərqlənmə və "baş leytenant" rütbəsi ilə bitirmiş məzunlara diplomları təqdim edib, gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

*XQ*

# Milli mətbuatın 150 illiyinə həsr edilmiş seminarlar

**Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İxtisasartırma Proqramının birgə təşkilatçılığı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyi çərçivəsində "Azərbaycan mətbuat tarixi" və "Media etikası" mövzularında keçirilən seminarlar yekunlaşıb.**



Medianın İnkişafı Agentliyi icraçı direktorunun müavini Natiq Məmmədli dünya jurnalistikasının keçdiyi əsas tarixi mərhələlər, Azərbaycanda milli mətbuatın yaranması və inkişaf prosesi, müasir media mühitində maarifçilik funksiyasının rolu, eləcə də media etikasının aktual çağırışları ətrafında geniş təqdimatlarla çıxış edib.

Qeyd olunub ki, jurnalistika sahəsi qədim dövrlərdən başlayaraq mütərəqqi inkişaf yolu keçir və hər dövrün özünəməxsus xüsusiyyətləri olur. Müasir dövrdə isə əvvəlkindən daha mürəkkəb mühitdə fəaliyyət göstərərək məlumat bolluğu və dezinformasiya ilə mübarizə kimi çağırışlarla üzləşir. Bu baxımdan seminar müasir və keçmiş jurnalistikanın tələblərini müqayisə etməklə yeni yanaşmaları dəyərləndirmək üçün böyük önəm dayışır.

İnteraktiv formatda təşkil olunan seminar zamanı real media nümunələri üzərində təhlillər, praktiki müzakirələr və fikir mübadiləsi aparılıb.

*XQ*

# Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını öz ərazisi hesab edirdi

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, kimi cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 20-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər. Məhkəmə iclasında 2007-2020-ci illərdə vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın suveren ərazilərində yaradılmış qondarma qurumun "rəhbəri" olmuş Bako Sahakyan dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandırıb.





Təqsirləndirilən şəxs bildirib ki, 2007-ci ildə qondarma rejimin "müdafiə naziri" Seyran Ohanyan olub. O, daha sonra Ermənistan Respublikası silahlı qüvəllərinin baş qərargah rəisi təyin edilib. Onu qondarma rejimdə general Movses Akopyan əvəzləyib. Daha sonra M.Akopyan Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi vəzifəsinə təyin edilib. Bu dəfə qondarma rejimdə "müdafiə naziri vəzifəsi"ni Levon Mnatsakanyan tutub. Ondan sonrakı ardıcıllıq belə olub: Karen Abrahamyan, Cəlal Harutyunyan və Mikael Arzumanyan.

Təqsirləndirilən şəxs deyib ki, qondarma rejimdə "müdafiə naziri" və "ordunun komandanı" "vəzifələri" eyni olub və onu bir şəxs tutub.

B.Sahakyan bildirib ki, qondarma qurumun "rəhbərliyinin" "silahlı qüvvələr" üzərində səlahiyyəti olmayıb.

O, qondarma rejimin "rəhbəri" olduğu dövrdə Ermənistan müdafiə nazirlərinin, silahlı qüvvələrin baş qərargah rəsilərinin Azərbaycanın vaxtilə işğalda olan suveren ərazilərinə səfərlər etdiklərini və onunla görüşdüklərini bildirib.

Məhkəmədə B.Sahakyanın 2015-ci ildə səsləndirdiyi və Ermənistan mətbuatında dərc edilmiş fikirləri elan olunub. Əsir və girov götürülmüş azərbaycanlılarla bağlı sualları cavablandıran B.Sahakyan bildirib ki, müharibənin ilk illərində - 1994-cü ilədək həmin şəxslərin bir hissəsi erməni komandirlərin yanında saxlanılırdı. O, qondarma rejim üçün silahların Ermənistan silahlı qüvvələri tərəfindən təmin edildiyini bildirib.

Təqsirləndirilən şəxs Şuşada hava hücumundan müdafiə hərbi hissələrindən birinin, o cümlədən "S-300" raket kompleksinin yerləşdirildiyini etiraf edib. O deyib ki, həmin raketlərin yerləşdirilməsi üçün onun razılığının alınması tələb olunmayıb, sadəcə, "yerli idarəetmə orqanları" bu məsələ ilə bağlı razılıq veriblər.

B.Sahakyan ifadəsində 2016-cı ildə baş vermiş, şərti olaraq Aprel döyüşləri adlandırılan hadisələr barədə suallara cavabında həmin vaxt əməliyyatlara kimlərin rəhbərlik etdiyini açıqlayıb.

B.Sahakyan Aprel döyüşlərinin nəticələri ilə bağlı Ermənistanın və qondarma rejimin birgə müzakirələr apardığını deyib.

Məhkəmədə tədqiq olunan növbəti sənəd mediada paylaşılmış məlumatla bağlı olub.

B.Sahakyan Azərbaycan ərazilərində baş vermiş döyüşlərlə bağlı istintaq komissiyasının niyə Ermənistanda təşkil olunmasının səbəbini belə izah edib: "İstintaq komissiyasının Ermənistan Milli Assambleyasında yaradılması normal idi. Çünki söhbət Ermənistan silahlı qüvvələrinin keçirdiyi əməliyyatdan gedirdi".

B.Sahakyan ifadəsində Azərbaycana qarşı döyüşənlər arasında xarici vətəndaşların olduğunu təsdiqləsə də, onların muzdlu olmadığını iddia edib. O, əlavə edib ki, həmin şəxslər Azərbaycanın həmin vaxt işğalda olan ərazilərinə Ermənistan vasitəsilə gəliblər. Həmin şəxslərin hansı ölkə vətəndaşları olması barədə suala isə B.Sahakyan belə cavab verib: "Onların ölkələrinin coğrafiyası geniş idi, Yaxın Şərqdən Kanadaya qədər".

Təqsirləndirilən şəxs qondarma qurumun "rəhbəri" olduğu dövrdə ərazilərin minalanması barədə sualı da cavablandırıb. Deyib ki, minalanma işləri aparanlar bununla bağlı ona məlumat verməyə borclu olmayıblar. "Onların borcu deyildi ki, bu işləri görməzdən əvvəl və ya sonra mənə məlumat versinlər. Çünki bu, təsdiqlənmiş işlər planı çərçivəsində həyata keçirilirdi", - deyə o əlavə edib.

Təqsirləndirilən şəxs Azərbaycanın Ermənistan tərəfindən işğalda olmuş ərazilərində təbii səbii sərvətlərin qanunsuz istismarı ilə bağlı sualları da cavablandırıb: "Biz bilirdik ki, orada Ermənistanda qeydiyyatdan keçmiş şirkət fəaliyyət göstərir".

Həmin ilin sentyabrın 27-də başlamış 44 günlük müharibə zamanı "sabiq rəhbər" kimi "hərbi əməliyyatların dayandırılması" istiqamətində müxtəlif müzakirələrdə iştirak etdiyini bildirib: "İmkanlarım daxilində çalışırdım ki, faydalı olum. Bu cür müzakirələr çərçivəsində Arayik Harutyunla görüşürdük".

Bu zaman məhkəmədə növbəti sübut tədqiq edilib. Sənədə əsasən, qondarma rejimin və Ermənistanın keçmiş prezidentləri görüşüblər. Görüşən şəxslərə Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarkisyan, Arkadi Qukasiyan və Bako Sahakyan daxildir.

Bako Sahakyan prokurorun sualına cavabında deyib: "Bizim (özünü və Arkadi Qukasyanı nəzərdə tutur – red.) Qarabağda Ermənistanda sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyanla görüşümüz olub. Biz Nikol Paşinyanla da görüşmüşük. Bu görüş 2021-ci ilin mart ayında olub".

Məhkəmədə növbəti sənədin tədqiqi 2022-ci il sentyabrın 20-də Ermənistan vətəndaşı, hazırda Azərbaycanda çoxsaylı cinayətlərə görə təqsirləndirilən Ruben Vardanyanın Arkadi Qukasyan və Bako Sahakyanla görüşü ilə bağlı olub. Görüşdə bir sıra məsələlər, o cümlədən qondarma rejimin "təhlükəsizliyi", "Qarabağın erməni torpağı kimi qalması" və "inkişafı" müzakirə olunub.

B.Sahakyan prokurorun "qondarma rejimin erməni qalması" ilə bağlı sualını da cavablandırıb. O deyib ki, "bu məsələ müxtəlif dövrlərdə strateji məqsədlərimizdən biri olub". Əlavə edib ki, "erməni torpağı kimi qalması" deyərkən qondarma rejimin "öz mövcudluğunu davam etdirməsi", növbəti dövrdə isə "Ermənistana birləşdirilməsi" nəzərdə tutulub.

Məhkəmə prosesi iyunun 21-də davam etdiriləcək.

*XQ*

(əvvəli 1-ci səhifədə)

# “Sülh zəngulələri” gerçəkliyin hay-küyü, barışın yamsılanmasıdır

## *Ermənistan şərtlərimizi qəbul etməlidir!*

Azərbaycanın isə sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərt var. Niyasə rəsmi İrəvanın təmsilçiləri, böyük ölçüdə, həmin şərtlərin üzərindən keçirlər. Əslində, bunun səbəbi məlumdur. Nikol və komandası beynəlxalq gündəmə Ermənistanın mütərəqqiliyi və sülhpərvərliyi görüntüsünü sırımağa çalışır. Məsələnin birinci tərəfi budur.

Məsələnin ikinci tərəfinə gəldikdə, bir qədər düşünək. Ermənistan sülh müqaviləsi imzalamağa hazırdırsa və ölkə hakimiyyətinin nümayəndələri məramlarını dəfələrlə açıqlayırlarsa, deməli, istər-istəməz, sual yaranır: Barış istəməyən hansı tərəfdir. Belə qənaət hasil olur ki, Azərbaycan Ermənistanla sülhə gəlməkdən boyun qaçırır. Elə rəsmi İrəvanın da nail olmaq istədiyi məhz bu rəyin formalaşmasıdır.

Bəli, davamlı sülh zəngulələri vurmaq erməni tərəfinin qeyri-səmimiliyinin və anti-Azərbaycan ritorikaya sadiqliyinin göstəricisidir. Həm də ona görə ki, ortada barış sazişi ilə bağlı konkret şərtlər var və rəsmi İrəvan onları yerinə yetirmək istəmir. Söhbət, birincisi, Ermənistan konstitusiyasına dəyişikliklərdən gedir. Daha doğrusu, ölkənin əsas qanununun 1991-ci ilin İstiqlaliyyət Bəyannaməsinə istinad məntiqinin aradan qaldırılmasından. Nəzərə alaq ki, bəyannamədə “Dağlıq Qarabağ Muxtar Vilayəti” sözü işlədilir. Ölkəmiz bunu ərazi iddiası kimi qiymətləndirir. Azərbaycan, həmçinin, bu iddianın təkcə Qarabağın deyil, onun ətrafındakı rayonlarımızın işğalını və işğalın otuz ilə yaxın müddətdə davam etdiyini əsas götürür. Ölkəmizə belə halların bir daha yaşanmayacağına, avantürist cəhdlərin təkrarlanmayacağına dair yüksək təminat lazımdır. Təminat nədir, bu barədə də söz açacağıq.

Ölkəmizin ikinci şərti də məntiqidir. Məlumdur ki, Azərbaycan və Ermənistan arasında Qarabağ danışıqları otuz ilə yaxın müddətdə davam etdi. Proseslə ATƏT-in Minsk qrupu məşğul oldu. Minsk qrupu çərçivəsində iki ölkə rəsmilərinin çoxsaylı görüşləri gerçəkləşdi. Eyni zamanda, bu təsisatın ABŞ-dan, Rusiyadan və Fransadan olan həmsədrləri regiona saysız-hesabsız səfərlər etdilər. Ancaq ATƏT-in Minsk qrupunun fəaliyyət(sizliy)i özündə Qarabağın mübahisəli ərazi məntiqini yaşatdı. Əslində, qrup işğalın leqallaşdırılması missiyasını həyata keçirdi, çalışdı ki, mənasız danışıqlar nəticəsində vaxt uzansın və nəsillərin dəyişməsi ilə Qarabağ Azərbaycan xalqının yaddaşından silinsin.

Yeri gəlmişkən, Ermənistan ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar zamanı irəli sürülmüş bir sıra həll variantlarını da qəbul etməmişdi. Azərbaycan 44 günlük müharibə ilə nəinki işğalı aradan qaldırdı, habelə, sözügedən təsisatın mənasız danışıqlar formatını və həmin format çərçivəsindəki variantları sıradan çıxardı, haqqı olana tam şəkildə sahibləndi.

Amma müharibədən sonra Ermənistan rəhbərliyinin Minsk qrupu formatına üstünlük verməsinə və beləliklə, Qarabağın yenə mübahisəli ərazi kimi saxlanılmasına yönələn cəhdini gördük. Ona görə Azərbaycan tələb edir ki, rəsmi İrəvan Bakı ilə birlikdə ATƏT-in Minsk qrupunun tamamilə ləğvi üçün birgə müraciət ünvanlasın. Göründüyü kimi, Ermənistanın baş nazirinin müavini Mher Qriqoryan bu haqda söz açmır. Ümumən, erməni rəsmiləri məsələnin üzərindən keçir, birbaşa “sülh göyərçinliyinə” fokuslanırlar.

Bir məqamı da vurğulayaq ki, baş nazir Nikol Paşinyan hərdən Azərbaycanın şərtlərinə toxunur. Ancaq bunu xüsusi həyasızlıqla edir. Məsələn, o deyir ki, Ermənistan konstitusiyasına dəyişiklik ölkənin daxili işidir, Azərbaycan konstitusiyasında da




Ermənistana qarşı ərazi iddiaları var. Bu, aşkar manipulyasiyadır. ATƏT-in Minsk qrupunun ləğvi məsələsinə gəldikdə, Nikolun fikri odur ki, bu qrupun ləğvinə dair müraciət sülh müqaviləsinin imzalanması ilə eyni vaxtda gerçəkləşməlidir. Yəni, o, ölkəsinin yalnız belə bir varianta razılığını ifadə edir.

Ermənistana inam yoxdur. Sülh müqaviləsinin imzalanmasından sonra ölkə xaricdəki havadarlarının köməyi ilə ATƏT-ə təzyiq edə və Minsk qrupunun saxlanılmasına nail ola bilər. Erməni məkrinin hər cür oyunbazlığa hazırlığından yaxşı xəbərdarıq. Uzun sözün qısası, yaxşı olar ki, təkcə M.Qriqoryan deyil, bütövlükdə rəsmi İrəvanın təmsilçiləri beynəlxalq tribunalardan Ermənistanın sülh müqaviləsinin imzalanmasına hazır olduğuna dair fikirləri təkrarlamasınlar. Çünki Azərbaycan tərəfi durumu diqqəti əsas məsələdən yayındırmaq cəhdi kimi qiymətləndirir. Əvvəldə mövcud dəst-xəttin, eyni zamanda, subliminal anti-Azərbaycan fəaliyyətə hesabladığını da vurğuladıq. Əlavə edək ki, bu yanaşma qarşılıqlı inam və etimada zərbə vurur.

Yaxşı olar ki, erməni iqtidarının təmsilçiləri beynəlxalq tribunalarda boş-boş sülh zəngulələri vurmaqdansa, ilk növbədə, konstitusiya dəyişikliyi naminə referenduma, həmçinin, Minsk qrupunun ləğvi üçün ATƏT rəhbərliyinə birgə müraciətin mətninin işlənilməsinə hazırlaşsınlar. Ciddi şəkildə nəzərə alsınlar ki, həqiqi barış mühitinin formalaşması xarici platformalarda sülhlə bağlı mənasız ritorikanın gündəmə gətirilməsində deyil, Ermənistanın daxili ictimai rəyinin Azərbaycanın şərtlərinin yerinə yetirilməsinin zəruriliyinə inandırmaqdan keçir. Azərbaycan tərəfinin əvvəldə haqqında söz açdığımız təminat istəyi məhz budur.

Dövlətimiz istəyir ki, erməni cəmiyyəti ərazi iddiasına düşməyəcəyinə dair iradə nümayiş etdirsin. Nəzərə alaq ki, belə bir iradənin nümayişi Ermənistanın gələcək mövcudiyyəti baxımından da son dərəcə vacibdir. Bəli, erməni xalqının iradəsi və referendumla İstiqlaliyyət Bəyannaməsinin işğalçı mahiyyətinə “yox” deməsi özünü Ermənistanın regionun sülh və əməkdaşlıq məkanına çevrilməsinə böyük töhfəsi şəklində göstərməlidir. Hesab edirik ki, qriqoryanlar, mirzoyanlar və paşinyanlar məhz bu ideyanı təbliğ etməlidirlər. Bunun üçün isə xaricdə yox, daxildə danışıq, maarifləndirmə işləri aparmaq, yeri gəlsə, inzibati resurslardan da yararlanaraq revanşist və şovinistləri sıradan çıxarmaq müstəsna vəzifədir.

Sonda onu da bildirək ki, M.Qriqoryan Peterburq Forumundakı çıxışında Azərbaycanla sülh müqaviləsinin nə zaman və harada imzalanmasına dair danışıqlar aparılmadığını da vurğulayıb. Baş nazirin müavini bunun səbəblərini düşünməlidir. Səbəbləri isə qeyd etdik. Amma o deyir ki, barış sazişi üçün ölkəsinin hansısa məhdudiyyəti və əlavə şərtləri yoxdur. Görəsən, olmalıdır ki?

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# Paşinyan–kilsə savaşında yeni toqquşma

**İrəvan ümumi yurisdiksiya məhkəməsi “Taşir” şirkətlər qrupunun prezidenti və təsisçisi, eyni zamanda, “Taşir” xeyriyyə fondunun rəhbəri Samvel Karapetyanın iki ay müddətinə həbs edilməsinə qərar verib.**

Bu barədə onun vəkili Armen Feroyan məhkəmə binası qarşısında jurnalistlərə bildirib. Vəkil məhkəmənin qərarını “absurdun zirvəsi” adlandırıb. Əlavə edib ki, müdafiə tərəfi qərardan apellyasiya şikayəti vermək və Karapetyanın qanuni hüquqları uğrunda mübarizə aparmaq niyyətindədir. Onun sözlərinə görə, Karapetyan zərrə qədər əsas olmadan həbs edilib: “Bu məntiqlə hər kəs həbs oluna bilər”.

Qərarın qəbulundan sonra oliqarx “Armavir” cəzaçəkmə müəssisəsinə aparılıb. Qeyd edək ki, biznesmen hakimiyyətin ələ keçirilməsinə açıq çağırışlarda ittiham olunur. Həbsdən az sonra “Taşir” qrupunun mətbuat xidməti S.Karapetyanın açıqlamasını yayıb. İş adamı bu günlərdə ona verilən dəstəyə görə erməni xalqına minnətdarlığını bildirib: “Təəssüf ki, məhkəmə hüquqi dövlət, qanunun aliliyinin olması ümidi ilə yaşayan xalqımıza parlaq örnək oldu. Sübut etdi ki, o, hələ də müstəqil, ədalət naminə, göstərişsiz fəaliyyət göstərmək iqtidarında deyil. Bütün həyatım boyu uğurlarımla yanaşı, çox çətinliklərim də olub, amma ruhum heç vaxt təslim olmayıb. Onlar məni qanunsuz həbslə, uydurma ittihamlarla sıxışdıra, qəbul etdiyim prinsiplərdən yayındıra bilməzlər”. S.Karapetyan bundan sonra da həmişə erməni xalqının, Erməni Apostol Kilsəsinin (EAK) yanında olacağını bildirib.

Ermənistanda və Rusiyada bir sıra ictimai-siyasi təşkilatlar, qurumlar, şəxslər, o cümlədən mədəniyyət və incəsənət xadimləri bu həbsə etiraz ediblər. Sözsüz ki, Karapetyanı dəstəkləyənlərin önündə EAK gəlir. Ancaq həbsə birbaşa qarşı çıxanlardan da var. Parlamentin sədri Alen Simonyan onlardan biridir. O, S.Karapetyanla bağlı hadisələri mediadan öyrəndiyini bildirib. Simonyan Karapetyanın evində axtarış aparılması ilə Paşinyanın rühaniləri və onların xeyriyyəçilərinə ünvanlanmış statusları arasında əlaqə görmədiyini vurğulayıb: “Heç kim səbəbsiz saxlanılmır. Deməli, o, həmin məşhur zarafatdakı kimi, nəsə var... Amma bu suala hüquq-mühafizə orqanlarının əməkdaşları cavab verməlidir”.

Bu arada Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Armen Abazyanın işdən çıxarılması da diqqəti cəlb edir. Məlumata görə, Abazyan MTX-nin S.Karapetyanı həbs etməkdən imtina etdiyi üçün işdən çıxarılıb. “Hraparak” qəzeti yazır ki, Abazyan Karapetyanın evində “maskalı şou” təşkil etmək istəməyib: “Armen Abazyan Samvel Karapetyanın evinin həyətində “maskalı şou” təşkil etməkdən, onu asfalt üstünə sərməkdən və həbs etməkdən imtina edib. Nəticədə işini itirib”. Üstəlik, qəzetin yazdığına görə, Abazyan elə həmin gecə MTX-nin əmri yerinə yetirmədiyi vaxt işdən çıxarılıb, sadəcə, fərman səhəri gün dərc edilib: “Abazyanın yerinə onun müavini Andranik Simonyan müvəqqəti icraçı təyin edilib və o, tezliklə bu vəzifədə təsdiqlənəcək. O, MTX sistemini dəhşətə salacaq”.



Qeyd olunur ki, A.Simonyan MTX-yə qoşulmazdan əvvəl hakim olub, Ali Məhkəmə Şurasının keçmiş sədri Ruben Vardazaryana qarşı ifadə verib və bunun əsasında tutduğu vəzifədən azad edilib. Sonra Simonyan MTX-də Paşinyanın “gözü və qulağı” olmaqla birbaşa Ermənistanın baş nazirinin rəhbərliyi altında çalışıb, onun göstərişlərini icra edib.

Qəzetin yazdığına görə, Paşinyan Abazyanın verdiyi məlumatları Simonyanla tez-tez dəqiqləşdirir və ya eyni vaxtda ona göstərişlər verir, beləliklə, sistemdə ikihakimiyyətlilik yaradırmış. Bəzi məlumatlara görə, o, həm də məhkəmə sisteminin kuratoru rolunu oynayır.

Qeyd edək ki, A.Abazyan 2020-ci il noyabrın 8-dən MTX-nin rəhbəri postunu tuturdu. 2024-cü ilin yanvarında yenidən bu vəzifəyə təyin edilmişdi. Ermənistanda “Milli təhlükəsizlik orqanlarında xidmət haqqında” qanuna edilən dəyişikliklərə və 2015-ci il konstitusiyasının tələblərinə uyğun olaraq, MTX rəhbərini prezident deyil, baş nazir təyin edir.

Abazyanın istefasından sonra – iyunun 19-dan başlayaraq İkinci Qarabağ müharibəsində itkin düşən əsgərlərin yaxınları İrəvanın Baqramyan prospektini parlament binasının qarşısında bağlayıblar. Polis onların qarşısını almağa çalışıb və vəziyyət gərginləşib. İtkin düşmüş hərbçi Sarkis Qukasyanın əmisi Arsen Qukasyan zorla küçədən çıxarılıb. Valideynlərdən biri qışqırıb: “Məni burax, mənim oğlum səndən pis idi? Onun boyu iki metr idi, indi isə o, yoxdur”. İtkin düşənlərin anaları küçənin ortasında yerə oturublar. Polis sonda küçəni qismən açmağa müvəffəq olub.

“Baqramyan 26” teleqram kanalı yazır ki, Paşinyan iki həftə əvvəl itkin düşmüş əsgərlərin yaxınları ilə görüşdüyünü və onun qarşısında konkret 5 məsələ qaldırıldığını, növbəti görüşün düz iki ay sonra baş tutacağına dair razılığa gəlindiyini və baş nazirin bu suallara cavab verəcəyini bildirib. Baş nazir bütün müvafiq göstərişləri verdiyini deyib və vurğulayıb ki, Milli Təhlükəsizlik Xidməti direktorunun istefası heç nəyi dəyişmir və heç nəyi dəyişə bilməz.

*

Bütövlükdə, Ermənistanda qonşu ölkə xalqının milli kimliyinin əsas institutlarından biri – EAK tərəfindən 44 günlük müharibədə məğlubiyyətdən sonra başladılan daxili siyasi böhran indi təlatüm mərhələsinə qədəm qoyur. Yada salaq ki, 2020-ci ilin payızında Azərbaycan torpaqlarının azad edilməsindən sonra II Qareginin dəfələrlə N.Paşinyan hökumətini istefaya çağırması iki qüvvə arasında kəskin qarşıdurmanın başlanğıcı oldu. Bütün proqnozların əksinə olaraq, Paşinyan “sağ qalmağı” bacardı: hakim “Mülki müqavilə” partiyası 2021-ci ildə parlamentdəki yerlərin əksəriyyətini qazandı. Ancaq EAK döyüşsüz təslim olmaq fikrində deyildi. Nəticədə 2024-cü ilin mayında fəallaşaraq keşiş Baqrat Qalstanyanı “cəbhə xəttinə” atdı. Amma keşişin küçə etirazları uğurlu alınmadı: reytinqlərin aşağı düşməsinə baxmayaraq, Paşinyanın komandası revanşistlərlə müqayisədə hələ də kifayət qədər güclü mövqeyə malik idi. Son günlərdə isə Hayastanda siyasi vəziyyət daxili qarşıdurmalar, həbslər, rusiyayönlü qüvvələrin fəallaşması ilə müşayiət olunan ciddi dəyişikliklərə məruz qalıb. Əlbəttə, əsas hadisələr Paşinyanın EAK-ı kəskin tənqid etməsi, MTX rəhbəri Armen Abazyanın istefası (yeri gəlmişkən qeyd edək ki, Abazyan Paşinyanın hakimiyyəti dövründə MTX-nin dəyişdirilən dördüncü rəhbəridir–S.H.) və rusiyalı biznesmen S. Karapetyanın həbsidir.

Situasiyanı şərh edən “BBC” müxbiri Qriqor Atanesyan bildirib ki, Karapetyana qarşı cinayət işi siyasi mübarizənin elementidir. Ermənistanda növbəti seçkilər 2026-cı ilin iyununda keçiriləcək, lakin müxalifət partiyaları hakimiyyət üçün xüsusi təhlükə yaratmır. Onlar daim bir-biri ilə konfliktdədirlər, geniş dəstəyə malik deyillər və ölkənin əvvəlki (və qeyri-populyar) liderləri ilə əlaqələrinə görə nüfuzdan düşürlər. Bu şəraitdə EAK hökumətə mühafizəkar mövqedən tənqid edərək, müxalifətin səsinə çevrilir: “Çoxları hakim partiyanın kilsə rəhbərliyinə qarşı başlatdığı kampaniyanı EAK-ın siyasi fəaliyyəti ilə əlaqələndirir. Kilsə dövlətdən ayrı olsa da, baş nazir bütün ermənilərin katolikosu II Qareginin istefasını tələb edib.

Paşinyan 2018-ci ildə kütləvi etiraz dalğası ilə hakimiyyətə gəldi və ölkədəki oliqarxları “aradan qaldıracağını” və monopoliyaya son qoyacağını vəd etdi. Amma, əslində, yeni hökumətə dəstəkləyən iri biznesmenlər öz bizneslərini saxlaya bildilər – hətta bəziləri yeni hakim partiyadan deputat seçildilər. Müxalifətə himayədarlıq edən erməni “Rokfeller”ləri axtarışlar və cinayət işi ilə üzləşiblər. Karapetyan siyasətdən kənarda qaldı və monopoliyaya – “Ermənistan elektrik şəbəkələri”nə nəzarəti saxlaya bildi. Lakin bütün bu illər ərzində o, EAK-ın ən böyük xeyriyyəçisi olub, dünyəvi və kilsə hakimiyyətləri arasında münaqişədən kənarda qala bilməyib”.

Bütün bu proseslər göstərir ki, Ermənistanda kilsə ilə dövlət arasında tarazlıq artıq pozulub. Qərbyönümlü, populist siyasi kursla hərəkət edən Paşinyan iqtidarı hakimiyyəti daha çox institusional güclərin zəifləd ilməsi üzərində qurmağa çalışır. Xarici təsirlərə açıq olan diaspor və rusiyayönlü dairələrin prosesə aktiv müdaxiləsi fonunda vəziyyət daha da mürəkkəbləşir. Məhz bu kontekstdə S.Karapetyan kimi fiqurların hədəfə alınması təsadüfi deyil. Bu, həm iqtisadi, həm də ideoloji simvolların susdurulması anlamına gəlir. Karapetyanın simasında Paşinyan həm diasporun, həm kilsənin, həm də Rusiyanın nüfuz imkanlarına zərbə endirmək niyyətindədir. Ancaq bu zərbələrin effektli olub-olmayacağı hələ bəlli deyil. Çünki EAK-ın təkcə Ermənistanda deyil, həm də xaricdə – xüsusən ABŞ və Fransadakı erməni icmaları arasında böyük nüfuzu var. Eyni zamanda, katolikos II Qareginin istefası tələbi daxildəki revanşist dairələri daha da radikallaşdıra bilər. Ermənistanın qarşıdakı bir ili dərinləşən sosial-siyasi parçalanma, elita içindəki hesablaşmalar və diaspor-daxil siyasət mübarizəsi ilə yadda qalacaq. Bu fonda Paşinyanın əsas “silahı” yenə də idarəolunan xaos və populist ritorika ola bilər. Lakin dövlətin dini institutlarla qarşıdurmaya girməsi heç vaxt uzunmüddətli siyasi dividend gətirməyib. Əksinə, bu, nəinki hökuməti, həm də bütövlükdə, dövləti zəif salan amilə çevrilə bilər.

*Səxavət HƏMİD*
*XQ*

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV, politoloq**

– Paşinyan bir sutka ərzində Rusiyanın zəngin ermənisi Samvel Karapetyanın həbsinə göstəriş verdi, səhər isə Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Armen Abazyanı işdən çıxardı. Kilsə əleyhinə kampaniya başlayandan sonra Paşinyan xeyli gərgin durumdadır. Bu iki hadisə Ermənistan baş nazirinin nə qədər aqressiv davranmağa başladığını nümayiş etdirir.

Samvel Karapetyanın evi ətrafında baş verən hadisələr və onun həbsi çox sürətlə inkişaf etdi. Prosesdə iki güc strukturu – Milli Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyi iştirak edib. Ehtimal edilir ki, MTX rəhbəri Paşinyanın tapşırığını yerinə yetirməkdən imtina edib, bu səbəbdən işini itirib. Armen Abazyan milli təhlükəsizlik sistemindən idi. Onun yerinə “desantçı”, yəni sistemdən olmayan şəxs – Andranik Simonyan gətirildi. Demək olar ki, Ermənistanın bütün hüquq-mühafizə orqanları artıq Paşinyanın əlindədir. Ümumiyyətlə, Paşinyan riskə meyilli adamdır. Rusiyanın zəngin ermənisini, “Ermənistan elektrik şəbəkələri”nin sahibini həbs etmək, Türkiyəyə səfər ərəfəsində isə MTX rəhbərini işdən çıxarmaq riskli addımlardır.

Karapetyanın hakimiyyətin ələ keçirilməsinə açıq çağırışda ittiham olunaraq həbs edilməsi sıradan bir hadisə deyil. Onu Ermənistan baş nazirinin qəzəbinə səbəb olan çıxışlarına görə həbs etdilər. Cənubi Qafqazda “demokratiya çırağı” adlandırılan ölkənin baş naziri bir adamın həbsinə göstəriş verməklə Ermənistandakı “demokratiya”nın səviyyəsini aydın nümayiş etdirdi. Avropalılar isə gur səslə deyirlər ki, Paşinyan hakimiyyətini “demokratik olduğuna görə” dəstəkləyirlər. Görək, onlar indi nə deyəcəklər.

# Fatehlərin qürur tablosu

(əvvəli 1-ci səhifədə)

2023-cü il fevralın 6-da qardaş Türkiyədə baş verən güclü zəlzələ nəticəsində on minlərlə insanın həlak olması və xəsarət alması Azərbaycan xalqını dərindən sarsıtdı. Təbii fəlakətin ilk dəqiqələrində Prezident İlham Əliyev türkiyəli həmkarı və dostu Rəcəb Tayyib Ərdoğana zəng edərək ölkəmizin qardaş dərdinə şərik çıxdığını, dövlətimizin və xalqımızın belə acı gündə onun yanında olduğunu bildirdi.

“Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə”. Fevralın 8-də Türkiyənin Bakıdakı səfirliyini ziyarət edərək zəlzələ nəticəsində çoxlu sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verən Prezident İlham Əliyevin xatirə kitabına yazdığı bu sözlər qardaş elin çətin günündə hər bir azərbaycanlının hisslərini ifadə edirdi. O çətin günlərdə Azərbaycan xalqı doğma qardaşlarına dəstək olmaq üçün yardımtoplama mərkəzlərinə gecə-gündüz demədən üz tutdu, yardımların göndərilməsi fasiləsiz davam etdirildi.





**

Sevinc paylaşılanda böyüyür, dərd bölüşüləndə azalır – deyib müdriklərimiz. Biz bir-birimizin sevincinə sevinməyi, dərdinə şərik olmağı bacaran xalqıq. Xalq sözünü ona görə tək halda yazdıq ki, Anadolu türkcəsində bir ananın dünyaya gətirdiyi və o çağlar işlədilən qarındaş ifadəsindən yaranmış indinin qardaş kəlməsi eyni qanın, eyni soyun daşıyıcısı olduğumuza dəlalət edir. Bəli, qardaşlar sevinclərini də, kədərlərini də iç-içə, göz-gözə yaşayarlar. “Çətin günün ömrü az olar”. Bu kəlam da babalarımızdan bizə miras qalıb. Qardaş dəstəyini çiynində hiss edən Türkiyə bu yükün altından Azərbaycanla birgə çıxdı, acısını unutmadan qəddini dikəltdi, yaralarını tez sarıdı.

Kahramanmaraş vilayətində açılışı edilən “Azərbaycan” yaşayış məhəlləsi məhz çiyin-çiyinə verərək çətinliyin öhdəsindən birlikdə gəlməyi bacaran qardaşlığın əyani isbatı, tarixi təzahürüdür. Bunu məhəllənin açılış mərasimindəki çıxışlarında Türkiyə və Azərbaycan liderləri birmənalı şəkildə vurğuladılar.

“Azərbaycan” məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur” – deyən Türkiyə lideri o çətin dövrdə köməyə ilk gələnlərdən biri Can Azərbaycan olduğunu qürurla bildirdi: “Fəlakət xəbərini alar-almaz “Səninləyəm, Türkiyəm!” deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var”.

“Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq və bu gün Türkiyə–Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya çapında önəmli faktordur”. Bu fikirləri Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında səsləndirib. “Dörd il bundan əvvəl hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim münasibətlərimizi ən yüksək zirvəyə qaldırdı. Şuşa Bəyannaməsi bizim münasibətlərimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırdı. Biz dostuq, qardaşıq, müttəfiqik, həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə Türkiyə və Azərbaycan iki qardaş ölkə bir birinin yanında inamla və uğurla irəliləyir” – dövlətimizin başçısı qeyd edib.

Türk dünyasının iki böyük liderinin əl-ələ verib çiyin-çiyinə dayandığı möhtəşəm mənzərəni fatehlərin qürur tablosu kimi xarakterizə edə bilərik.

**ARAYIŞ:** Ümumi sahəsi 32 hektar olan, məktəb və uşaq bağçası, Heydər Əliyev adına ibtidai məktəb və mədəniyyət mərkəzinin salındığı məhəllədə 71 yaşayış binası inşa olunub. Eyni zamanda, burada məskunlaşacaq sakinlərin işlə təmin olunması məqsədilə 799 ticarət obyekti istifadəyə verilib. Layihənin 100 milyon ABŞ dolları məbləğində hissəsi Azərbaycan hökuməti tərəfindən icra olunub.

*

Tarix şahidlik edir ki, Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətləri XX əsrin əvvəllərindən etibarən yüksələn xətlə inkişaf etməyə başlayıb. İki ölkənin və xalqın ortaq tarixi, mədəniyyət və dil bağları münasibətləri daha da möhkəmləndirib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqda Osmanlı İmperiyasının varisi olan Türkiyə müstəqil dövlətimizi ilk dəstəkləyənlərdən, diplomatik əlaqələr yaradanlardan olub. Doğrudur, SSRİ dövründə iki ölkə arasında əlaqələr əsasən qeyri-rəsmi xarakter daşıyırdı. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə münasibətlər yaxın və intensiv təmaslarla əvəz olunmağa başladı. Həmin dövrdən etibarən ölkələrimiz arasında siyasi və iqtisadi sahədə dərin əməkdaşlıq quruldu, Türkiyə Azərbaycana siyasi və diplomatik dəstək verdi. Qardaş Türkiyə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə olan dəstəyini, xüsusilə keçmiş Qarabağ münaqişəsi zamanı açıq şəkildə nümayiş etdirdi. Məhz həmin dövrdən etibarən iki ölkə arasında münasibətlər tərəfdaşlıqdan qardaşlıq səviyyəsinə ucalmağa başladı. Bu doğma təmaslar iki qardaşın ətrafında digər türkdilli ölkələrin də cəmləşməsinə təkan vermiş oldu. Bu gün Türk dünyası özündə 7 dövləti və bir neçə ərazini birləşdirir. Bu dövlətlər dil, mədəniyyət və tarix baxımından bir-biri ilə sıx əlaqəlidir. Türkiyə və Azərbaycan Türk dünyasında liderlik edən əsas ölkələrdir. 2009-cu ildə yaradılan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (sonradan Türk Dövlətləri Təşkilatına çevrilib) türk dövlətləri arasında əməkdaşlığın inkişafına və birliyin möhkəmlənməsinə xidmət edir.

Vahid Türk coğrafiyasına – Turana gedən yolda əzm və fədakarlıq nümunələri göstərən Bakı Ankara ilə birlikdə bu gün TDT-nin lokomotivinə çevrilib. Bu məqamda Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində dediyi sözləri yada düşür: “Bizim üçün əsas beynəlxalq əməkdaşlıq prioriteti Türk Dövlətləri Təşkilatıdır, çünki bu təşkilat Azərbaycanın mədəni və tarixi baxımdan aid olduğu ailəni – Türk dünyasını təmsil edir. Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq. İlk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”.

*

Bu gün Türk ailəsinin ağsaqqalı saydığımız Türkiyənin hər tərəfində xüsusi ab-hava var. Axı, Kahramanmaraşda salınan “Azərbaycan” məhəlləsi, sadəcə, yaşayış məkanı deyil, eyni zamanda, Azərbaycan–Türkiyə qardaşlığının, sarsılmaz dostluğunun və ağır gündə bir-birinə dayaq olmanın əyani sübutudur. Bu layihə bir daha göstərdi ki, Azərbaycan və Türkiyə təkcə dost və müttəfiq deyil, həm də eyni ruhu, eyni taleyi bölüşən “Bir millət, iki dövlət” anlayışına sahib çıxan ölkələrdir. Böyük öndərlər – Mustafa Kamal Atatürkün “Azərbacanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Heydər Əliyevin “Biz bir millət, iki dövlətik” tezisləri bu gün qardaşlığa bələdçilik edir. Bəli, Azərbaycan–Türkiyə qardaşlığı dünyaya nümunədir.

Yazımızı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “X” sosial şəbəkəsindəki hesabında Azərbaycanla bağlı paylaşımı ilə bitiririk: “Biz eyni bayrağın kölgəsində dua edən, eyni istiqlal üçün can verən bir millətin iki dövləti, tək ürək daşıyan övladlarıyıq. Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan?”.

Bəli, biz daha “Ayrılıq” mahnısına kövrəlmirik. Bu gün biz hilallı-ulduzlu qoşa bayraqlarımızdan cuşa gələn, çırpınan Qara dənizə baxıb, kahramanmaraşlıların İlham Əliyevə ünvanladıqları “Qarabağın fatehi!” nidasını eşidib qürurla sayğı duruşu alan millətik!

**PS .** Kahramanmaraş vilayətinin rəsmilərinə şəhərdəki “Xocalı Milli Bağ Parkı”nda “Dəmir yumruq” abidəsinin qoyulması ilə bağlı təklif təqdim olunub. Özündə Xalq–Ordu–Lider vəhdətini ehtiva edən “yumruğ”un Azərbaycanın Kahramanmaraşdakı cəsarət və qətiyyət möhürü kimi daim anılacağı şübhəsizdir.

***İmran BƏDİRXANLI***
***XQ***



**Azərbaycanın Kahramanmaraşda inşa etdiyi binalardan birindəki bu gözəl çarpayıda 2 il 3 ay 2 həftəlik Elvin mışıl-mışıl uyuyacaq. Bunu misal olaraq deyirik. Müdhiş zəlzələnin baş verdiyi gün bir oğlan uşağı dünyaya gəldi. Adını körpəni və anasını real ölümdən xilas edən azərbaycanlı həkimin şərəfinə Elvin qoydular. Elvin İsazadə sonralar həmin hadisəni belə xatırlayacaq: “Dörd günlük yuxusuzluq, yorğunluq və stresdən sonra keçirdiyim hissləri izah edə bilmirəm. Zəlzələ bölgəsində dünyaya gələn körpəyə ata-anası mənim adımı verdi. Allah körpə balamıza gözəl həyat nəsib eləsin”. Kahramanmaraşdakı “Azərbaycan” məhəlləsində böyüyəcək bütün Elvinlər qardaşlığın rəmzinə, qürur mənbəyinə çevriləcək. Dünya nə belə qardaşlıq tanıyır, nə də qürur bilir...**

# Diplomatik korpusun nümayəndələri Laçında

## *İgidlər oylağı qayıdış poliqonu, dirçəliş ünvanıdır*

**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Şərqi Zəngəzur və Qarabağa səfəri başlayıb.**

İyunun 20-də diplomatlar Laçında olublar. Nümayəndə heyətini Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşayiət edib.

Qonaqları Laçın Beynəlxalq Hava Limanında Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov qarşılayıb. Hava limanı ilə tanışlıq zamanı yeni inşa olunan aeroport haqqında məlumat verilib. Bildirilib ki, Laçın aeroportu ötən ayın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılıb. Mürəkkəb dağlıq relyefdə yerləşən bu hava limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır. İşğaldan azad olunan ərazilərdə qısa vaxtda müasir standartlara cavab verən Füzuli və Zəngilan beynəlxalq hava limanları da inşa olunub və artıq fəaliyyət göstərir. Laçın aeroportunun istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.

Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektinin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadratmetrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir. Terminalda sərnişinlərin rahatlığı üçün VIP zal, qeydiyyat və təhlükəsizlik sistemləri, baqaj konveyerləri, ticarət obyektləri və iaşə zonaları nəzərdə tutulub. Burada yaradılmış infrastruktur ICAO və IATA standartlarına uyğun olaraq uçuşların təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə imkan verir.



Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq.

Diplomatik korpus nümayəndələri sonra “Hoçazfilm” studiyasına gəliblər. Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan studiya Laçın şəhərində iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Çoxşaxəli yaradıcılıq məkanı olan “Hoçazfilm”in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir.

Qonaqların tanışlıq səfərinin növbəti ünvanı Yurd Qalereyası olub. 2025-ci ildə Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi çərçivəsində açılmış bu qalereya Qarabağ və Şərqi Zəngəzurun zəngin mədəni irsini əks etdirmək məqsədi daşıyır. Burada yerli sənətkarların əsərləri, bölgənin tarixi və etnoqrafiyası ilə bağlı eksponatlar sərgilənir. Qalereya həm də mədəni tədbirlər və sərgilər üçün yaradıcı platformadır.



Daha sonra qonaqlar “Lacinema” mərkəzinə baş çəkiblər. Qeyd edilib ki, kino mərkəzi musiqili və bədii tədbirlərin keçirildiyi məkana çevrilib. Bayram və əlamətdar günlər ərəfəsində mərkəzdə bir çox mədəni tədbirlər təşkil edilir.

Diplomatlar burada Laçının işğal zamanı çəkilən görüntülərini və azad edildikdən sonra görülən bərpa-quruculuq işlərini özündə əks etdirən videoçarxa baxıblar. Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov Laçın haqqında təqdimatla çıxış edib.

Diplomatik korpus nümayəndələrinin Laçın səfəri Seyrangahda davam edib. Burada qonaqlar Laçın şəhərinə açılan mənzərəyə baxıb, Laçının yenidən abadlaşdığına şahid olublar.

Laçında fəaliyyətə başlayan mərkəzlərdən biri – "Gilabi Ceramics” də səfər iştirakçılarının marağına səbəb olub, burada ərsəyə gələn əl işlərinin sərgisinə baxış keçirilib. Sonra qonaqlar Həkəri çayının Laçın şəhər mərkəzindən keçən sahilində olub, çaya balıq buraxıblar.

Səfər iyunun 21-də Şuşada davam edəcək.

***XQ***

# İki dost, qardaş və müttəfiq




I MƏQALƏ

## Siyasi dostluq

Azərbaycan Prezidentinin mütəmadi olaraq siyasi-nəzəri və praktiki əhəmiyyəti çox maraqlı olan fundamental məzmunlu tezislər irəli sürməsini artıq normal hal kimi qəbul edirlər. Bu, bizi qürurlandırdığı kimi, həm də üzərimizə böyük məsuliyyət qoyur. Çünki Prezident İlham Əliyevin ifadə etdiyi fikirlərin mənası, məzmunu və məqsədləri ciddi araşdırılmalıdır. Bunun ən azı iki səbəbini görürük.

Birincisi, Azərbaycanın dövlət başçısı yeni siyasi liderliyin əsas özəlliklərini ifadə edən fikirlər irəli sürür. Bu, bütövlükdə XXI əsrdə perspektivli siyasi paradiqmanın təqdimatı deməkdir. Əlbəttə, onu ilk növbədə Azərbaycan ziyalıları dərk edib, araşdırmalı və cəmiyyətə təqdim etməlidirlər.

İkincisi, Prezident İlham Əliyev həmişə güclü Azərbaycanın mövcudluğu və inkişafına xidmət edən fundamental tezislər ifadə edir. Onların bu aspektdə də fəlsəfi-elmi və siyasi-nəzəri dərki son dərəcə vacibdir.

Bu mənzərəyə XXI əsrin yeni geosiyasi çağırışlarının əmələ gətirdiyi qlobal və regional mənzərəni də əlavə etmək gərəkdir. Çünki vurğulanan faktorların qarşılıqlı əlaqəsi sonucda hər bir müstəqil dövlət qarşısında çox məsuliyyətli vəzifə qoyur. Onun başlıca mənası belə bir sürətlə dəyişən turbulent xarakterli dinamika və müxtəlif qaynaqlardan yaranan risklər şəraitində dövlətin uğurlu olmasını təmin etmək yüksək yaradıcı münasibət tələb etməsindən ibarətdir.

Azərbaycan Prezidentinin hər bir fundamental fikrinə, irəli sürdüyü tezisə məhz vurğulanan prinsiplərin kontekstində baxmaq lazımdır. Başqa halda onların real məzmun, mahiyyət və məqsədlərini adekvat dərk etmək mümkün olmur.

Bu baxımdan Prezident İlham Əliyevin Qəhrəmanmaraşda çıxışı zamanı ifadə etdiyi fikirlər çox maraqlıdır. Onların sırasında müəllifi Prezident İlham Əliyevin olduğu fundamental tezis vardır: “dostuq, qardaşıq, müttəfiqik!” Bu üç fəzilətli kəlmənin eyni məntiq və kontekstdə birləşdirilməsi siyasi nəzəriyyədə yeni hadisədir. Çünki İlham Əliyev konkret olaraq Azərbaycan-Türkiyə münasibətlərini siyasi lider kimi xarakterizə edərkən bu fikri söyləmişdir.

Deməli, İlham Əliyev irəli sürdüyü fikri iki dövlətin münasibətlərinin ümumi məzmunundan çıxış edərək və onları ümumiləşdirərək bəyan etmişdir. Burada yaradıcı düşünən (müasir sosio-humanitar elmdə, o cümlədən, politologiyada ona kreativlik də deyirlər) liderin ifadə etdiyi tezisə verdiyi məzmun önəmlidir. Bu, Prezidentin dövlətlərarası münasibətlərin qarşılıqlı faydalı əməkdaşlıq məcrasına gətirilməsi üçün realpolitika çərçivəsində nəzəri yanaşma ilə praktiki fəaliyyəti mükəmməl uyğunlaşdırmasının əlamətidir.

Bundan başqa, İlham Əliyevin ifadə etdiyi fikrin dünya miqyasında aktuallığı qətiyyən şübhə doğurmur. Məsələnin iki tərəfi vardır.

## Siyasi dostluq şüur təcrübəsi kimi

Birincisi, əksəriyyətin düşüncəsində siyasətdə dostluq nisbi və dəyişkən məzmuna malikdir. O mənada ki, “dövlətin dostu yoxdur, maraqları var” (U.Çörçillin məlum deyiminin improvizasiyası) fikri az qala klassik və dəyişməz həqiqət kimi siyasilərin, analitiklərin, ekspertlərin, KİV nümayəndələrinin təfəkküründə yer almışdır.

Bu mənada siyasət üzrə politologiya elmləri namizədi, Rusiya Hərbi Akademiyasının müxbir üzvü Sergey Sudakovu başa düşmək olar. Onun qənaətinə görə, “siyasətdə dostluq, ümumiyyətlə, mümkün deyildir”. Arqument kimi amerikalıların dostlarını necə müəyyən etdiyini gətirir. Məsələn, kiçik Buşa siyasətdə dostluqla bağlı sual verəndə deyibmiş ki, NATO üzvləri ilə dostluq münasibətləri daha üstündür. Yəni ABŞ-ın dostluğa yanaşması birmənalı deyil. D.Tramp isə daha konkret fikir bildirmişdir. O demişdir ki, ABŞ-ın dostları kimi Böyük Britaniyanı, Yaponiyanı, Cənubi Koreyanı, MDB-nin bir sıra dövlətini və Avropanı görmək istərdi.

Əlbəttə, bunlar siyasi dostluğa aid olan gerçəkliklərin bir qismidir. Lakin bu yanaşma əsl siyasi dostluğu deyil, hansısa dövlətin siyasi təcrübəsindən qaynaqlanan münasibətinin ifadəsidir. ABŞ rəhbərliyinin vurğulanan aspektdə siyasi dostluqdan danışması təəccüblü deyildir. Bu, onların siyasi şüur təcrübəsinin məhsuludur. Onlar başqa təcrübə görməmişlər və alternativi qəbul etmək də istəmirlər. U.Çörçill də bu anlamda amerikanlardan ciddi fərqlənmir. Lakin siyasi dostluq haqqında bütün bu bədbin fikirlər onları söyləyənlərin problemidir. Məsələyə siyasi-nəzəri və fəlsəfi yanaşma başqa mənzərədən xəbər verir.

İkincisi, siyasi dostluğa daha geniş və elmi kontekstdə yanaşmaqla onun olduqca vacib və əsasən fəzilətli olan məzmununu müəyyən etmək olar. Qərbin özündə bununla bağlı sanballı tədqiqatlar mövcuddur. Məsələn, İsveçrənin Fribur Universitetindən Nikolya Ayo maraqlı araşdırma aparmış və ümumiləşdirmələr etmişdir. Bu da bütövlükdə siyasi dostluğa yanaşmanın başqa siyasi təcrübəsidir. Onun qısa məzmunu siyasi dostluğun relyasion aspektindən (əlaqələrə əsaslanan aspekt) prinsipial olaraq fərqlənir. Həmin yanaşmanı Nikolya Ayo ümumi olaraq siyasi dostluğun struktural və institusional anlamı kimi xarakterizə edir. Strukturallıq və institusionallıq isə öz növbəsində “vətəndaş dostluğu” anlayışının məna çalarları kontekstində izah edilir. Obrazlı desək, vətəndaş dostluğu siyasi dostluğu dərk etmək üçün siyasi müstəviyə pryoeksiya edilir. Deməli, bu cür yanaşmada siyasi dostluq əsas aspektlərində vətəndaş dostluğunun qaydaları ilə (mənəvi, əxlaqi, ideya, mədəni, tarixi və s.) sıx bağlılıqdadır.

Kollektiv siyasi fəaliyyət həmin çərçivədə reallaşır. Yəni bu anlamda siyasi dostluq konkret məzmun alır. Bu müddəanın Azərbaycan Prezidentinin irəli sürdüyü tezis bağlılığında siyasi-nəzəri mahiyyəti barədə irəlidə bəhs edəcəyik. Burada onu vurğulayaq ki, Azərbaycan siyasi düşüncə mədəniyyətində və ya sistemində, ənənəvi olaraq siyasətdə fəzilətli dostluq əsas kimi qəbul edilmişdir.

ABŞ timsalında vurğuladığımız anlam isə məsələyə relyasyon yanaşma aspekti ilə bağlıdır. Yəni dövlət digərini onunla əlaqənin şəxsi utilitar maraqlara cavab verdiyi sərhəddə dost hesab edir. Onu politoloqlar “qeyri-formal siyasi proses” kimi də xarakterizə edirlər. Yəni siyasətçi sözdə bir mövqe bildirir, lakin pərdəarxası başqa meyarları nəzərdə tutur. İnsan təcrübəsi göstərir ki, belə yanaşmada nəinki dövlətlər, hətta fərdlər belə etibarlı dost ola bilməzlər. Sözdə dostluq, əməldə fırıldaq!

Bu, süni seçimdir və hər bir konkret zamanda dəyişkən şəxsi faktorlara əsaslanır. Siyasi dostluq bu anlamda həqiqi ola bilmir (məşhur “ingilis bayrağı” deyimi). Bunun kökünü Qərb mədəniyyətinin ənənəsində axtarmaq olar. Onlarda “kişi sözü”, “dostluq”, “verdiyi sözə əməl etmək” və s. kimi anlayışlar fərqli dərk edilir (tarixi təcrübə göstərir). Dəfələrlə, dost dedikləri və söz verdikləri dövlətlərə qarşı hiyləgər davranmışlar, hətta şəxsi dostluqlarına etibarlı olmamışlar. Bu məsələnin üzərində geniş dayanmamaqla, onu ifadə edək ki, indi də D.Trampın hər saatda sözünü dəyişməsi faktdır.

## Şərq anlamında dostluq

Biz, geniş miqyasda Şərq kontekstini ona görə götürürük ki, Azərbaycan bu məkanda dərin mədəniyyət köklərinə malik ölkələrdən biridir. Onun tarixi dünəndən deyil, əsrlərin əngəlliklərindən başlamışdır. Ona görə də bütövlükdə Şərq mədəniyyətinin köklü təmsilçisi, özəl sivilizasiya məkanı və ayrıca çox zəngin dövlətçilik ənənəsi olan coğrafi-siyasi və mədəni məkan olaraq Azərbaycan sanballı təcrübəyə malikdir. İndi Azərbaycanda dövlət quruculuğunda və cəmiyyət inkişafında müşahidə olunan əsas prinsiplər Ulu öndər Heydər Əliyevin sayəsində həmin dərin ənənə məcrasına təkrar “yerləşdirilmişdir”. Buna görə də Azərbaycanda müstəqil dövlət quruculuğunun hikmətini dərk etmək üçün təfəkkürü dərindən “işlətmək” gərəkdir. Başqa cür Azərbaycanı olduğu kimi anlaya bilməzsən!

Bundan başqa, Azərbaycan möhtəşəm və fəzilətli türk mədəniyyətinin təmsilçilərindəndir. Bu mədəniyyət mahiyyətcə fəzilətlidir. Ədalət, dostluq, qardaşlıq, paylaşma, məzluma dəstək, ellə bir olmaq, etibarlılıq, verdiyi sözə əməl etmək məsuliyyəti, tərbiyəli olmaq, böyük-kiçik yerini bilmək, valideynləri müqəddəsləşdirmək, cəmiyyətdə nizam-intizama böyük önəm vermək, başqa qövmlərə ədalət və mehribançılıq prizmasında baxmaq və digər fəzilətlər azərbaycanlılara aiddir. Ulu öndər Heydər Əliyev Azərbaycanda nizam-intizamın iki növünü ayrıca qeyd edirdi – birincisi, daxili nizam-intizam¸ ikincisi, ictimai asayişin qorunması. Çünki bu iki şərtin ödənməsi halında azərbaycanlılar həm fərd, həm də Azərbaycan cəmiyyəti olaraq ədalətli, xeyirxah, insansevər ola bilirlər! Bu, dərin hikmətdir və xüsusi tədqiq edilməlidir!

## Dostluğun Azərbaycan ənənəsi

Azərbaycan cəmiyyətində uğurlu olmaq istəyən, onun mənəvi-əxlaqi, mədəni və tarixi ənənəsinə mütləq dərin saygı ilə yanaşmalı və ona əməl etməlidir. Bu məmləktdə, ümumiyyətlə, sözün, o cümlədən, kişi sözünün xüsusi anlamı və sosial funksiyası vardır. Təsadüfi deyildir ki, lider İlham Əliyev tez-tez “bizdə kişi sözü var” deyir və verdiyi vədlərə dəqiq əməl edir. Bu, Azərbaycan cəmiyyətinin liderlərinin ənənədən gələn davranış kodeksinin mərkəzi anlayışlarındandır. Burada sözünə əməl etməyənə nə etibar var, nə də etimad. Belə olmayanları Azəbaycan cəmiyyəti sadəcə “yola verir”. Yəni tam kənarlaşdırmır, lakin gündəlik həyatda hər an anladır ki, “yolu çaşdın”! Başa düşən düzəlir, anlamayanın isə aqibəti Yaradana tapşırılır.

Deməli, Azərbaycan elə özəl mədəniyyət, tərəqqi, davranış və əxlaq məkanıdır ki, öz kodları, memləri, sosial-mədəni sərhədləri dəqiq müəyyən edilmiş uğurlu olmaq “sahəsi” (obrazlı, “uğur dəhlizi” də deyə bilərik) mövcuddur. Dostluq misalında bu aspekt üzərində bir qədər geniş dayanaq.

Əslində, bizim yanaşmamız anlamında əsl dostluğun cəmi bir neçə fundamental qaydası vardır. Birincisi, “dost dosta tən gərək”, ikincisi, “kişinin sözü bir olar”, üçüncüsü, “dost dostun əmanətinə xəyanət etməz”, dördüncüsü, “dost yolunda candan keçilər”, beşincisi, “dostluq satılmaz”, altıncısı, “dost həyatda qazanılan qardaşdır” (dostu ananın köynəyindən keçirib, qardaş edirlər) və s.

Azərbaycan ənənəsi üçün özəl haldır ki, sosial həyatda, gündəlik birgə yaşamaqda önəmli olan bu dostluq şərtləri həmişə siyasi dostluğa proyeksiya olunmuşdur. Hər kəs bununla bağlı Azərbaycanın siyasi tarixində kifayət qədər faktlar tapa bilər. Onun da xüsusi anlamı mövcuddur. Yəni “niyə Azərbaycanda siyasi dostluq cəmiyyətin ənənəsindəki anlamlarla uyğunluq təşkil edir?” sualının elmi izahı vardır. Çünki bu məqam bütövlükdə Azərbaycan türk toplumunun birgəyaşam fəlsəfəsinin əsas sütunlarından biridir. Dövlətçilik ənənəsi dərin olan bir qövm üçün bu, tamamilə məntiqi və zəruri haldır, təbiidir. Məsələnin kökü qədimdən Azərbaycanda cəmiyyət-dövlət münasibətlərinin ümumi ruhunun başlıca əlamətlərinə gedib çıxır. Daha doğrusu, həmin təməl faktorlar arasında münasibətlərin xarakteri, mahiyyəti və məzmunundan qaynaqlanır.

Beləliklə, vurğuladığımız keyfiyyət hansı mexanizmə əsaslanır?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Ermənistan baş naziri Nikol Paşinyanın Türkiyə Respublikasına işgüzar səfəri maraqla izlənilir. Hayastanda bu səfərə reaksiyalar diqqəti cəlb edir. Böyük kəsim səfərin üstünlüklərini vurğulayır, Türkiyə və Azərbaycanla münasibətlərin yaxşılaşmasını istəməyən radikal revanşistlər isə onun əleyhinə çıxırlar. Həm parlament müxalifəti, həm də Erməni Apostol Kilsəsi ilə gərginlik yaşayan Paşinyanın səfəri bəziləri tərəfindən siyasi avantüra, digərləri tərəfindən isə cəsarətli diplomatik jest kimi qiymətləndirilir.**

Ermənistan mediası və “Teleqram” kanalları da bu məsələdə iki yerə bölünüb. Məsələn, populyar “Baqramyan 26” kanalında yerləşdirilmiş “Nikol Paşinyanın Türkiyəyə səfəri: qeyri-sabit region fonunda praqmatizm” sərlövhəli məqalədə bildirilib ki, bu səfər qeyri-adi olsa da, əslində, təsadüfi deyil və həm Ermənistanın daxili gündəliyindən, həm də regional proseslərin məntiqindən irəli gələn düşünülmüş addımdır. Qeyd edilir ki, bu səfər Türkiyə Prezidentinin rəsmi dəvətinə cavab olaraq, sadəcə, diplomatik jest deyil, həm də Ermənistan hökumətinin elan etdiyi regionlaşma siyasətinin əməli şəkildə həyata keçirilməsidir: “Səfər regionda dəyişən reallıqlar fonunda, İran və İsrail arasında qarşıdurmanın gözlənilməz nəticələrlə təhdid etdiyi bir vaxtda Ermənistan ətrafında təhlükəsizlik sistemində sabitliyin möhkəmləndirilməsinə yönəlib. Ermənistanla Türkiyə arasında birbaşa təmasların yaradılması bizə üçüncü tərəf vasitəsilə kommunikasiyanın dalana dirənməsindən qaçmağa və yeni dialoq formatı – dövlət maraqlarının təmin edilməsinə imkan verir. Bu formatda Ermənistan–Türkiyə təmasları nəinki təfsir və anlaşılmazlıq risklərini azaldar, həm də vasitəçilərsiz milli maraqların müdafiəsi və təşviqi üçün yeni kanal aça bilər. İrəvan xarici ssenarilərin obyekti olmağa yox, özünü regional siyasətin subyekti kimi göstərməyə çalışır. Beləliklə, Ermənistan realist və institusional dövlətlərarası münasibətlərin formalaşması strategiyasını nümayiş etdirir. Bunlar artıq köhnə münaqişələrin üstüörtülü və dolayı yolla həlli cəhdləri deyil, qarşılıqlı hörmət, suverenliyin tanınması və təhlükəsizlik təhdidlərinin rədd edilməsi prinsipləri əsasında gələcəyə baxışdır”.

# Paşinyanın Türkiyə səfəri: Kim “irəli!”, kim “geri!” deyir



Teleqram kanalı qeyd edir ki, Türkiyə–Ermənistan sərhədinin açılması və nəqliyyat kommunikasiyalarından normal istifadə Ermənistanın kommunikasiya asılılığını azaltmaqla yanaşı, real regional əməkdaşlığa da yol aça bilər: “Türkiyəyə səfəri, sadəcə olaraq, diplomatik akt kimi deyil, onilliklər ərzində qarşılıqlı inamsızlıq və bağlı sərhədlər şəraitində yaşayan regionda yeni reallıq formalaşdırmaq cəhdi kimi də qiymətləndirmək olar. “Real Ermənistan” ideologiyası da məhz budur – sülhün qurulmasında açıq, başa düşülən və təşəbbüskar olmaq”.

***

“Joxovurd” qəzeti isə etibarlı mənbələrə istinadən yazıb ki, N.Paşinyan və komanda yoldaşları Türkiyəyə səfərinin məqsədlərini bir müddət öncə bağlı qapılar arxasında müzakirə ediblər: “Mənbələrimizin məlumatına görə, Paşinyan bildirib ki, o, Türkiyəyə Prezident Rəcəb Tayyib Ərdoğanla görüşməyə gedir. Məqsəd həm də Azərbaycanla sülh sazişinin imzalanması istiqamətində irəliləyişə nail olmaqdır. Əldə etdiyimiz məlumata görə, baş nazir vurğulayıb ki, 2026-cı il seçkilərinə qədər nəyin bahasına olursa-olsun Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair sazişi imzalamaq lazımdır. Siyasi komanda bunu seçkidə qalib gəlməyə, hakimiyyətdə qalmağa zəmanət verən strateji addım hesab edir. Paşinyanın bəzi komanda yoldaşları hesab edirlər ki, beynəlxalq oyunçular – Rusiya, ABŞ və Avropa regionda fiziki mövcudluqlarına baxmayaraq, sabitliyi təmin edə bilməyiblər. Buna görə də Paşinyan 2026-cı ildə yenidən seçilmək üçün sülh sazişinin imzalanmasını sürətləndirmək ümidi ilə Ankara ilə birbaşa təmasda olmaq qərarına gəlib”.

Revanşistlər isə öz amplualarında qalmaqda davam edirlər. Erməni Apostol Kilsəsi rəsmi bəyanat verməsə də, Eçmiədzinə yaxınlığı ilə tanınan “Yerkir media” telekanalı səfəri aşağıdakı şəkildə şərh edib: “İstanbula səfər etməzdən öncə Nikol Paşinyan Eçmiədzinə baş çəksəydi, bəlkə daha mənalı olardı. Həm ruhani, həm də milli zəmində bu addım yanlış zamanlama ilə atılıb”. Bu şərh kilsənin ümumi narazılığını dolayı şəkildə ifadə edir. Kilsə təmsilçiləri son dövrlərdə Paşinyanın milli identiklik məsələlərində həddən artıq kosmopolit davranışlar sərgilədiyini bildirirlər.

İrəvanda nəşr olunan “Haykakan Jamanak” və İstanbulda türk və erməni dillərində çıxan “Aqos” qəzetləri isə Paşinyanın səfərini həssas, amma nikbin tonda təqdim ediblər. “Aqos” qəzetində yayımlanan redaksiya məqaləsində deyilir: “Sülhə aparan yolun emosiyalardan deyil, cəsarətli qərarlardan keçdiyini anlamaq üçün bəlkə də çox şeyə ehtiyac yoxdur. Paşinyanın gəlişi ilk addımdır – davamlılığı olacaqmı, zaman göstərəcək”.

Lakin İstanbul erməniləri arasında bu səfərə skeptik yanaşanlar da az deyil. “Nor Marmara” qəzetinin köşə yazarı Hovsep Çolakyan yazır: “Bu, həmin Paşinyandır ki, bir zamanlar diasporu təhqir edən bəyanatlar verirdi. İndi bizə yaxınlaşmaq istəyir. Yəni Ermənistan iqtisadi və siyasi cəhətdən çökəndə...”

Bəzi media qurumları isə Paşinyanın Türkiyə səfərini daha çox sülh, sabitlik və geosiyasi reallıqlar prizmasından izah edirlər. Məsələn, “Lragir.am” saytı səfərə belə şərh verib: “Bu səfər göstərir ki, Ermənistan təkcə Moskva və Tehranla yox, eyni zamanda, regionun əsas oyunçularından biri ilə stabil əlaqə qurmaq niyyətindədir”. “Aravot.am” isə səfəri təhlükəli, amma vacib diplomatik təşəbbüs adlandıraraq yazıb: “Paşinyanın İstanbul gedişi onu erməni tarixinin ən paradoksal lideri kimi təsvir etməyə imkan verir. Amma bəzən paradokslar tarix yaradır”.

Bütün bu reaksiyaları ümumiləşdirsək deyə bilərik ki, N.Paşinyanın İstanbul səfəri Ermənistan cəmiyyətində mövcud olan bütün ideoloji və siyasi baxışların üzə çıxmasına səbəb olub. Hər kəs bu səfəri öz dünyagörüşü, siyasi mövqeyi və tarixi yaddaşı çərçivəsində dəyərləndirib. Lakin bir məqam dəqiqdir. Bu da səfərin, sadəcə, xarici siyasət addımı olmaması, həm daxili auditoriyaya – kilsəyə, diaspora, revanşistlərə, həm də Qərbə ünvanlanan çoxqatlı mesaj olmasındadır.

***S.NAZİMOĞLU***
***XQ***

# Ceyhun Bayramov Türkiyədə

**İyunun 20-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin İstanbul şəhərinə işgüzar səfərə yola düşüb.**

Səfər çərçivəsində xarici işlər nazirinin İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 51-ci iclasında, habelə dəyirmi masalarda və İƏT əlaqə qruplarının iclaslarında iştirakı nəzərdə tutulub.

Ceyhun Bayramovun, həmçinin yüksəksəviyyəli ikitərəfli görüşlərinin keçirilməsi planlaşdırılıb.

***XQ***

# Xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın dəstəyi

**İyunun 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında telefon danışığı aparılıb.**



Telefon danışığı zamanı İsrail-İran qarşıdurması nəticəsində mövcud təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Tərəflər İsrail-İran qarşıdurması nəticəsində bölgədə yaranmış təhlükəsizlik vəziyyətindən ciddi şəkildə narahat olduqlarını bildirib, münaqişənin diplomatik yollarla həllinin vacib olduğunu vurğulayıblar.

Avropa İttifaqı üzv ölkələrinin vətəndaşları daxil olmaqla, xarici ölkə vətəndaşlarının İrandan təxliyəsində Azərbaycanın oynadığı əhəmiyyətli rol təqdir edilib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# Avstraliya vətəndaşları da İrandan Azərbaycana keçiblər

**İyunun 20-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Avstraliyanın xarici işlər naziri Penni Vonq arasında telefon danışığı olub.**




Telefon danışığı zamanı İsrail-İran qarşıdurması nəticəsində mövcud təhlükəsizlik vəziyyəti müzakirə olunub. Avstraliyanın xarici işlər naziri ölkəsinin vətəndaşlarının İrandan təxliyəsi planları barədə məlumat verib və Azərbaycan tərəfindən göstərilən dəstəyə görə təşəkkür edib.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıb, iki ölkə Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələr mexanizminin əhəmiyyətini vurğulayıblar.

Replika

# Samvel, Ruben və Solovyov

## *Yaxud acizliyin miskin dramatizmi*

**Ermənistanda tanınmış iş adamı, ölkədəki "Taşir" kompaniyasının sahibi Samvel Karapetyanın saxlanılması və ona qarşı ağır ittihamların irəli sürülməsi adi qarşılana bilməz. Məlumdur ki, Karapetyan baş nazir Nikol Paşinyanın anti-kilsə ritorikasına zidd fikirlər səsləndirmişdi. Onun saxlanılmasının əsl səbəbi budur.**

O da məlumdur ki, iş adamının üzləşdiyi durum təkcə Ermənistan miqyaslı hadisə deyil. Çünki Karapetyan Rusiya bağlantılı şəxsdir və Ermənistanın energetika sektorunun əsas simasıdır. Loru dildə desək, adamın dilinin olduğu kimi, dilçəyi də var. Heç şübhəsiz, belə birinin saxlanılması və həbs təhlükəsilə üzləşməsi siyasi mahiyyət daşıyan hadisədir.

Bəli, 2026-cı ildə Ermənistanda parlament seçkiləri keçiriləcək və heç şübhəsiz, ölkədəki revanşist və şovinist kəsim seçkiyə hazırlaşır. Elə Paşinyanın iqtidar düşərgəsi də. Nikolun Karapetyanın tərəfini tutduğu kilsəyə qarşı aramsız hücumları da hazırlığın tərkib hissəsidir. Erməni iqtidarı ən böyük maneəni bəribaşdan sıradan çıxarmaq istəyir. Dediklərimizin fonunda mühüm məqamlardan biri də Karapetyanın Rusiyanın əli ilə hərəkətə gətirilməsidir.

Bu yerdə yada Ruben Vardanyan düşür. O Vardanyan ki, Qarabağda peyda olmuş və keçmiş separatçı rejimin oyuncaq "dövlət naziri" postunu tutmuşdu. O Vardanyan ki, hazırda Bakıda həbsxanadadır və özünə kəsiləcək cəzanı gözləyir. Ruben də Rusiyanın emissarı idi. Kremldəki bəzi dairələr belə hesablamışdılar ki, "Qarabağ kartı" ilə yenidən Ermənistandakı mövqelərini bərpa edəcəklər. Amma olmadı...

Əlqərəz, hazırda Karapetyanın Paşinyana ünvanladığı sərt fikirləri vaxtilə Vardanyan da dilə gətirirdi. Əlbəttə, o zaman gündəm kilsə deyildi. Yəni, Rubenin öz mövzusu var idi. Amma prinsip etibarilə onun dedikləri erməni iqtidarının devrilməsinin vacibliyinə, belə bir hakimiyyətin xalqı təmsil etməsinin yolverilməzliyinə söykənirdi. Karapetyan da eyni ritorikanı təbliğ edir. Bu gün onu Paşinyanın komandası saxlayıb, Vardanyan da eyni aqibəti yaşaya bilərdi. Yaxud həmin vaxt Karapetyana Qarabağ üzrə "baş rol" verilsəydi, Bakı həbsxanasında hücrə sahibi Ruben yox, Samvel olardı.

Diqqətə çatdırdığımız fikirlər fonundakı başlıca məqam Rusiyanın Ermənistan üçün heç bir siyasi industriya formalaşdıra bilməməsidir. Kreml məsələ barədə düşünməyib də. Ruben kartını gördük, Samvel kartını da görürük. İkisi də biznesmendir, iş adamıdır, ay nəbilim xeyriyyəçidir və sair. Ancaq onların heç biri böyük ölçüdə siyasətçi deyillər. Yeri gəlmişkən, Vardanyan həm də beynəlxalq miqyaslı dələduzdur. Elə məhz budur Rusiyanın Ermənistana yanaşması. Əlbəttə ki, söhbət yarıtmaz yanaşmadan gedir.

Yarıtmazlıqdan söz düşmüşkən, Ermənistanda Rusiyanın Serj Sarkisyan və Robert Koçaryan adlı alətləri də olub. Ölkənin üçüncü və ikinci prezidentləri. Bu adamlar kimlər idilər? Cavab birmənalıdır. Onlar quldurluqda, canilikdə, başkəsənlikdə ad çıxarmışdılar. Ölkəni də eyni tərzdə idarə edir, xalqın malını talayırdılar. Rusiya siyasi düşüncə sistemi üçün bunun heç bir fərqi olmadı.



Tam qətiyyətlə demək olar ki, rus başbilənlər fil qulağında yatdılar, elə zənn etdilər ki, sarkisyanlar, koçaryanlar erməni xalqına qan uddura-uddura, ona zülm və zillət yaşada-yaşada idarəçiliklərini sürdürəcəklər. O qədər ağır yuxuya daldılar ki, Ermənistanda Qərbin əli ilə hərəkətə gətirilmiş qüvvəni görə bilmədilər. Nəticədə, el dilində ifadə etsək, dinsizlərin öhdəsindən imansızlar gəldi. Paşinyan hakimiyyətə yiyələndi və 2018-ci ildən indiyədək Rusiyanın müəyyən dairələri onu devirmək üçün miskin gedişlərə baş vururlar. Əvvəl bu gedişlərin Vardanyan təmayülü var idi, indi də Karapetyan. Bir də ortaq kilsə təzahürü...

Necə deyərlər, eyni dalğa, eyni koordinat. Mövcud fonda aciz Rusiya obrazını tərənnüm edən jurnalist Vladimir Solovyovdur. O, karvanın arxasınca hürən it kimidir. Bu məxluq müəllifi və aparıcısı olduğu teleproqramda "Artsax" sərsəmləməsini gündəmə gətirir, Paşinyan əleyhinə təhqirlər yağdırır. Başqa nə etsin? Axı karvan gedir və heç nəyə gücü çatmır. Hələ utanmaz-utanmaz erməni xalqını öyür və tərifləyir də. Öz aləmində, erməniləri Paşinyan əleyhinə üsyana çağıracağını zənn edir. Əsl acizlik və miskinlik də elə budur. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Sülh qatarı son dayanacağa çatacaqmı?

## *Erməni baş nazirin İstanbul səfərindən bu suala cavab gözlənilir*

**Ermənistan baş naziri Nikol Paşinyanın İstanbula səfəri bir daha regionda dəyişən geosiyasi nizamı gündəmə gətirdi. Bu səfər, sadəcə, ikitərəfli münasibətlərin normallaşması prosesinin elementi olmayıb, həm də Cənubi Qafqazda yeni diplomatik arxitekturanın formalaşdığı bir mərhələnin göstəricisidir. İndi əsas sual budur: Ermənistanın sülh gündəmi harada yekunlaşacaq? Son günlər adları hallanan Vaşinqtonda, Əbu-Dabidə, Ankarada, yoxsa başqa məkanda?**

Paşinyanın İstanbula səfəri fonunda Cənubi Qafqazda gedən geosiyasi və diplomatik proseslər bir sıra ehtimal və fərziyyələri aktuallaşdırır. Sülh sazişinin harada və hansı konfiqurasiya üzrə yekunlaşacağı sualı həm regiondaxili, həm də qlobal güc mərkəzlərinin maraq balansında cavab axtarır.

Birinci ehtimal Vaşinqtondur, Qərbin zəif, amma simvolik sponsoru. ABŞ uzun illərdir Cənubi Qafqazda vasitəçi statusunu qorumağa çalışsa da, bu cəhdlərin real nəticələri hələlik zəif görünür. Vaşinqtonun vasitəçilik təşəbbüsləri daha çox "mövcudluq nümayişi" xarakteri daşıyır, nəinki substantiv və mexanizmləşmiş diplomatik çərçivə. Vaxtilə Entoni Blinkenin iştirakı ilə baş tutan danışıqlar prosesi, əslində, Ermənistan və Azərbaycan arasında ciddi irəliləyişdən çox qarşılıqlı ritorikaların yumşaldılmasına xidmət etdi. Sülh gündəliyinin əsas elementləri – sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizi və sülh sazişi layihəsi üzrə real konsensus məhz regional formatlarda, xüsusilə Rusiya və Türkiyənin iştirakı ilə aparılırdı. İndi dialoq vasitəçisiz davam edir.

ABŞ-ın bu mənada "siyasi sponsor", lakin "təhlükəsizlik zəmanətçisi" ola bilməməsi Ermənistanın Qərbə inteqrasiya cəhdlərini ciddi sual altına qoyur. Ermənistan hökuməti ardıcıl şəkildə Avropa İttifaqı və ABŞ-la münasibətləri dərinləşdirməyə çalışsa da, bu inteqrasiya prosesləri yalnız siyasi və maliyyə dəstəyi ilə məhdudlaşır. Təhlükəsizlik sferasında isə real alternativ yoxdur. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından uzaqlaşmaq istəyi, eyni zamanda, Rusiyanın regiondakı roluna etimadsızlıqla izah olunur. Lakin Qərbdən hərbi zəmanətlərin gəlməməsi bu boşluğu daha da dərinləşdirir.

Bu kontekstdə ABŞ-ın sülh platforması təklif etməsi Paşinyan üçün daxili və xarici auditoriyaya mesaj vermək məqsədi daşıyır: "Ermənistan tək deyil, beynəlxalq ictimaiyyət onun arxasındadır". Lakin bu simvolik mesajın arxasında siyasi və hərbi reallıq dayanmadıqda, ABŞöın vasitəçiliyi yalnız diplomatik jest səviyyəsində qalır. Qeyd edə bilərik ki, Vaşinqton ssenarisi sülhün ideoloji dəstəkləyicisi kimi görünsə də, onun praktiki tətbiqində zəifdir. Bu isə sülh sazişinin ABŞ-da deyil, daha funksional və real formatda – məsələn, Ankara və ya Əbu-Dabi platformasında yekunlaşması ehtimalını artırır. Cənubi Qafqazda formalaşan yeni diplomatik mühit fonunda Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vasitəçilik təşəbbüsü xüsusi diqqət çəkir. Əbu-Dabinin Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasında platforma rolunu oynamaq niyyəti ilk baxışda təəccüblü görünsə də, əslində, bu təşəbbüs Yaxın Şərq ölkələrinin artan diplomatik iddiaları və regional təsir uğrunda apardıqları "yumşaq güc" siyasətinin tərkib hissəsidir.

*

Əbu-Dabinin geosiyasi "sükut diplomatiyası" – yəni diqqət mərkəzində olmadan, lakin effektiv vasitələrlə proseslərə daxil olması – həm rasionallığı, həm də siyasi neytrallığı ilə fərqlənir. BƏƏ nə ATƏT-in Minsk Qrupu kimi tarixi yük daşıyır, nə də ABŞ və Rusiya kimi maraq savaşında tərəfdir. Bu da Əbu-Dabini neytral vasitəçi statusuna ən yaxın aktor halına gətirir. Əbu-Dabinin platforma kimi aktuallaşmasının daha bir səbəbi onun Azərbaycana yaxınlığı və Ermənistanla praqmatik münasibətlər qurmaq istəyi ilə bağlıdır. Azərbaycanın BƏƏ ilə son illərdə strateji enerji, investisiya və texnoloji layihələrdə əməkdaşlığı güclənib. Prezident İlham Əliyevin ərəb dövlətlərinə münasibətdə yürütdüyü balanslı və modern siyasət BƏƏ-nin Bakıya olan yüksək etimadı ilə tamamlanır. Bu isə Əbu-Dabini yalnız texniki vasitəçi deyil, etibarlı və tərəflər üçün qəbulolunan koordinasiya mərkəzinə çevirə bilər.



Digər tərəfdən, Ermənistan üçün də Əbu-Dabi Qərb-Rusiya xəttindən kənar yeni nəfəs kanalı rolunu oynayır. Paşinyan hökuməti üçün neytral platformada danışıq aparmaq həm daxili ictimai rəyə, həm də xarici tərəfdaşlara balanslı və "müstəqil diplomatik xətt" təəssüratı yaratmaq baxımından əhəmiyyətlidir. Əgər Vaşinqton və Moskva vasitəçiliyi siyasi təsirlə, Ankara isə regional güc faktorları ilə müşayiət olunursa, Əbu-Dabi platforması dəyişkən və mürəkkəb geopolitik reallıqların "təhlükəsiz zonasına" çevrilə bilər.



Nəhayət, BƏƏ-nin bu sahəyə marağı təkcə Cənubi Qafqaza deyil, postneft dövründə beynəlxalq vasitəçilik və diplomatik arbitr roluna hazırlaşmasının göstəricisidir. Əbu-Dabi özünü Qətər və Səudiyyə Ərəbistanı kimi regiondakı əsas aktorlarla yanaşı, qlobal diplomatik oyunçu kimi təqdim etməyə çalışır. COP28, Davos forumlarında aktiv iştirak, Afrika və Asiya ilə geniş diplomatik əlaqələrin qurulması və indi də Cənubi Qafqaz təşəbbüsü bu xəttin məntiqi davamıdır.

Beləliklə, Əbu-Dabi sülhün son dayanacağı üçün neytral, ambisiyalı və texnokratik alternativ təklif edir. Bu, yalnız Ermənistan və Azərbaycanın deyil, həm də geosiyasi güclərin oyunçusu olmayan üçüncü tərəflərin diplomatiyada yeni format yarada biləcəyinin əyani nümunəsidir.

*

Nəhayət, üçüncü ehtimal realizm və regional nizamın memarı olan Ankaradır. Nikol Paşinyanın İstanbula səfəri Ermənistan–Türkiyə münasibətlərindəki normallaşmanın yeni mərhələsinə keçid kimi qiymətləndirilsə də, əslində, bu hadisə daha geniş və dərin geosiyasi mənaya malikdir. Səfər Paşinyanın Bakı ilə razılaşmaya gedən yolunun "Türkiyə dəhlizi"ndən keçdiyini nümayiş etdirir.

Sülh gündəliyindəki əsas şərtlər – Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması, konstitusion iddialardan imtina, ATƏT-in Minsk qrupunun ləğvi, sərhədin delimitasiyası və regiondaxili kommunikasiyaların açılması – artıq siyasi reallığa çevrilməkdədir. Paşinyan hökuməti bu addımları Azərbaycan tərəfindən irəli sürülmüş şərtlər kimi deyil, özünün "strateji seçimləri" kimi təqdim etməyə çalışır. Lakin bu "siyasi rebrendinq" cəhdi özlüyündə reallıqla ideoloji təəssürat arasındakı fərqi açıq şəkildə göstərir.

Bu kontekstdə Ankara faktoru özünəməxsus yer tutur. Türkiyə həm Ermənistanla münasibətlərin normallaşdırılmasında, həm də Azərbaycan–Ermənistan sülh prosesi üçün platforma hazırlığında aparıcı regional aktor kimi çıxış edir. Əgər Rusiya sülh prosesindən tədricən uzaqlaşdırılırsa, Qərb yalnız diplomatik jestlərlə kifayətlənirsə, Türkiyə həm diplomatik, həm də geosiyasi mexanizmləri ilə bu prosesi konkret nəticələrə apara bulən yeganə aktor statusu qazanır.

Ankara üçün bu rol təkcə regional liderlik ambisiyası deyil, həm də Bakının maraqları ilə sinxronlaşdırılmış strateji planın tərkib hissəsidir. Türkiyə–Ermənistan münasibətlərindəki hər yumşalma, əslində, Ermənistan–Azərbaycan münasibətlərində müəyyən razılaşmanın indikatoruna çevrilib. Məsələn, kommunikasiya xətlərinin bərpası, ticarət əlaqələrinin bərpası və sərhədin açılmasına dair qeyri-rəsmi siqnallar Bakının razılığı və koordinasiyası ilə həyata keçirilir. Bu isə Paşinyan üçün ciddi seçim və risklər mənbəyidir. O, bir tərəfdən Türkiyə ilə yaxınlaşaraq Azərbaycanın şərtlərinə tədricən adaptasiya olunduğunu göstərir, digər tərəfdən isə daxili auditoriyaya "çoxvektorlu və müstəqil siyasət yürüdən lider obrazı" formalaşdırmağa çalışır. Lakin reallıq göstərir ki, Ermənistan faktiki olaraq sülh prosesinin regional oyunçular – xüsusilə Ankara və Bakı – tərəfindən formalaşdırılan məntiqi axınına tabe olur.

Ankara bu mənada artıq yalnız Türkiyənin deyil, Cənubi Qafqazın yeni geosiyasi memarı funksiyasını icra edir. Onun diplomatik oyun planı, sadəcə, Ermənistanla normallaşma deyil, həm də Azərbaycan-Ermənistan münasibətlərində balanslaşdırılmış, lakin Bakının maraqları ilə uzlaşan model yaratmaqdır. Bütün bu amillər sülhün regional sabitlik və kommunikasiyanın yenidən dizaynı mənasında strateji əsaslar üzərində qurulmasını nəzərdə tutur.

Beləliklə, Paşinyanın İstanbula səfəri, əslində Ankaranın regiondakı yeni diplomatik dizaynının tərkib hissəsidir və Ermənistanın faktiki olaraq regionun yeni siyasi reallığını qəbul etməsinin növbəti mərhələsi kimi oxunmalıdır. Paşinyan hökuməti qarşısında dayanan əsas dilemmanı belə ifadə etmək olar: təhlükəsizlik təminatları ilə strateji müttəfiqlər arasında balansı necə yaratmalı? Rusiya ilə münasibətlər pozulub, KTMT-dən uzaqlaşma var, lakin Qərbdən konkret hərbi zəmanət alınmayıb. Ukraynanın timsalında Qərbin nə qədər "selektiv müdaxilə" siyasəti apardığı ortadadır.

Bu baxımdan, Paşinyanın qonşularla – xüsusilə Azərbaycan və Türkiyə ilə – münasibətləri normallaşdırmaq cəhdləri artıq strateji seçim yox, məcburi adaptasiya forması alıb. Yəni Ermənistan geosiyasi reallıqlara uyğunlaşmağa məcbur qalır, amma bunu daxili auditoriyaya "müstəqil qərar" kimi təqdim edir.

*

Hazırkı proseslər göstərir ki, Ermənistanın sülhə doğru atdığı addımlar daha çox Azərbaycanın 2020-ci ildən bəri qurduğu diplomatik və hərbi balansın nəticəsidir. Paşinyan dörd il yeddi ay əvvəl imzaladığı, amma icrasından boyun qaçırdığı öhdəlik və prinsipləri tədricən qəbul edir. Türkiyə ilə münasibətlərin normallaşdırılması da bu kontekstdədir. Ankara bu oyunda həm geopolitik arxitektura qurucusu, həm də Bakı ilə sinxron hərəkət edən strateji aktordur. Sülhün "son dayanacağı" harada olsa da, ən azı, Ankara xəritəsinin içindən keçəcək.

Paşinyanın İstanbul səfəri diplomatik şifrəli mesajdır: Ermənistan artıq regionun yeni reallığını qəbul edir, amma bu prosesi öz "strateji narrativi ilə bəzəməyə" çalışır. Sülh müqaviləsi Vaşinqtonda imzalansa belə, onun ideoloji təməlləri Bakı–Ankara oxu üzərində qurulacaq. Əbu-Dabi isə alternativ və neytral platforma kimi geosiyasi balansın saxlanmasına dəstək verə bilər.

Sual açıq qalır: Paşinyan sülh sazişini harada imzalayacaq? Lakin cavab artıq formalaşır – bu sənədin harada imzalanması yox, kim tərəfindən şərtləndiyi daha əhəmiyyətlidir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Ölkəmizin Özbəkistanla iqtisadi əlaqələri genişlənir

## İlin əvvəlindən ticarət dövriyyəsi 3 dəfə yüksəlib




**Ötən il Azərbaycan–Özbəkistan ikitərəfli tərəfdaşlığı üçün mühüm hadisələrlə zəngin olub. May ayında Quba şəhərində II Regionlararası Forum keçirilib, bu toplantı çərçivəsində Füzuli və Gülüstan, Biləsuvar və Tərmiz, Mingəçevir və Namanqan şəhərləri arasında qardaşlaşma sazişləri imzalanıb. İqtisadi sahədə digər önəmli layihələr də gerçəkləşdirilib. İxracın təşviqi, investisiya əməkdaşlığının inkişafı, ölkələrimizin sahibkarları arasında birbaşa işgüzar əlaqələrin qurulması və regionda birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi istiqamətlərində əhəmiyyətli tədbirlər gerçəkləşdirilib. Bütün bu məsələlərin daha geniş miqyasda həll məqsədilə Azərbaycanın Özbəkistanda Ticarət Nümayəndəliyinin yaradılması nəzərdə tutulub.**

Bakıda keçirilən 3-cü Azərbaycan–Özbəkistan regionlararası forumunda bütün bunlar barədə ətraflı bəhs edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov iki ölkə arasında iqtisadi-ticarət münasibətlərinin davamlı dinamika ilə müşahidə olunduğunu, cari ilin ilk 5 ayında Özbəkistanla ticarət dövriyyəsinin ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfədən çox artaraq 200 milyon dolları ötdüyünü vurğulayıb.

Mikayıl Cabbarovun sözlərinə görə, iki ölkə arasında ticarət dövriyyəsinin 2030-cü ilə qədər 1 milyard dollara çatdırılması barədə razılıq əldə edilib. Bu hədəfə çatmaq yalnız ticarət deyil, qarşılıqlı investisiya və sənaye kooperasiya layihələrinin artırılması ilə mümkündür. Bu istiqamətdə hazırda bir sıra addımlar atılır.

İqtisadiyyat naziri daha sonra Özbəkistanın Azərbaycan investorları üçün əsas tərəfdaşlardan biri olduğunu, hazırda özbək biznesinin Azərbaycan bazarına böyük marağının müşahidə edildiyini bildirib. "Bu istiqamətdə 500 milyon dollar nizamnamə kapitalına malik Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin fəaliyyəti mühüm rol oynayır. Fond yarandığı gündən iqtisadiyyatın real sektorunda layihələrin həyata keçirilməsində fəal iştirak edir", – deyə nazir qeyd edib.

Özbəkistanın investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratov isə forumda çıxışı zamanı iki ölkə arasında 2025-2026-cı illər üçün sənaye əməkdaşlığı proqramının hazırlanacağını diqqətə çatdırıb. "Özbəkistan Azərbaycanda əlaqələrinin fəal inkişafını gerçəkləşdirmək, Azərbaycanın biznes nümayəndələrini Özbəkistan iqtisadiyyatının imkanları ilə tanış etmək üçün ticarət evlərini genişləndirmək niyyətindədir. Biz də Azərbaycan istehsalçılarının öz məhsullarını Özbəkistan bazarında təqdim və təşviq etmələri üçün imkanlar yaradacağıq", – deyə Laziz Kudratov vurğulayıb.

# Azad torpaqlara bol və təmiz su!

**Ölkəmizin işğaldan azad olunmuş ərazilərinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu barədə XQ-yə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) tabeliyində fəaliyyət göstərən Regional Su Meliorasiya Xidmətindən məlumat verilib. Ötən müddətdə Füzuli şəhərinin xarici su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması layihəsi üzrə 11,4 kilometr magistral, müxtəlif diametrli borularla 4,4 kilometr artezianlararası su və 1,8 kilometr kanalizasiya kollektor xətti çəkilib. Bundan əlavə, şəhər ərazisində 6 subartezian quyusunun tikinti işləri icra olunub, müxtəlif tutumlu 2 su anbarının tikintisi isə yekunlaşmaq üzrədir.**

**Laçın rayonunun Zabux, Sus, Bəylik və Güləbird kəndlərinin** su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində 4,36 kilometr magistral su və 1 kilometr kanalizasiya kollektor xətti çəkilir, 1 sutəmizləyici qurğular kompleksi, 2 su anbarı, 1 kanalizasiya nasos stansiyası, eləcə də 1 tullantı sutəmizləyici qurğu inşa olunur. Artıq sözügedən infrastruktur obyektlərinin tikintisində işlərin 60-80 faizi görülüb.

**Ağdam şəhərinin** xarici su təchizatı, kanalizasiya və yağış suları sisteminin yaradılması layihəsi çərçivəsində 2,6 kilometr içməli su, 2,8 kilometr kanalizasiya kollektor və 3,08 kilometr yağış suları xəttinin, eləcə də 10 min kubmetrlik 1 su anbarının tikintisi 60 faiz, 7 min 500 kubmetrlik su anbarının inşası isə 70 faiz tamamlanıb. Rayonun Sarıcalı kəndinin xarici su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində 1,36 kilometr magistral su, 3 kilometr təzyiqli kanalizasiya xətlərinin və 1 kanalizasiya nasos stansiyasının tikintisi ilə bağlı işlərin 97 faizi icra olunub.

Eyni zamanda, Kəngərli və Xıdırlı kəndlərinin xarici su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində ərazidə 3 kilometr magistral su və 2,1 kilometr kanalizasiya kollektor xəttinin çəkilişi başa çatdırılıb. Bununla yanaşı, hazırda Kəngərli kəndində 3 kilometr magistral su və 5,73 kilometr kanalizasiya kollektor xətlərinin, eləcə də 1 kanalizasiya nasos stansiyasının tikintisi davam etdirilir.

**Şuşa şəhərinin** xarici su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində 0,51 kilometr su xətti çəkilib, mövcud su anbarında abadlıq işləri həyata keçirilib. Hazırda isə ərazidə daha 1 su anbarının tikintisi davam etdirilir. Bununla yanaşı, rayonun Turşsu qəsəbəsinin xarici su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində 1,52 kilometr magistral su və 1,19 kilometr kanalizasiya kollektor xətləri çəkilib, 1 su anbarı və modul tipli tullantı sutəmizləyici qurğu inşa olunub.



**Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlıda da** içməli su təchizatı və kanalizasiya sisteminin yaradılması ilə bağlı layihənin icrası davam etdirilir. Regional Su Meliorasiya Xidmətindən verilən məlumata əsasən, rayonun Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin xarici su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində 3,32 kilometr magistral su və 9,5 kilometr kanalizasiya kollektor xətləri çəkilir, müxtəlif tutumlu 3 su anbarı və 1 su nasos stansiyası inşa olunur, həmçinin 5 subartezian quyusu qazılır. Artıq layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərinin yarısından çoxu başa çatdırılıb.

**Zəngilan şəhərinin və rayonun Cahangirbəyli kəndinin** xarici su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində işlər də sürətlə davam etdirilir. Hazırda Zəngilan şəhərində 1,86 kilometr magistral, 1,68 kilometr subartezianlararası su və 7,2 kilometr kanalizasiya kollektor xətlərinin, müxtəlif tutumlu 2 su anbarının və 1 inzibati binanın, Cahangirbəyli kəndində isə 2,2 kilometr magistral və 460 metr subartezianlararası su xətlərinin, müxtəlif tutumlu 2 su anbarının və 3 subartezian quyusunun tikintisi həyata keçirilir.

**Hazırda Cəbrayıl şəhərinin, eləcə də rayonun Horovlu və Şükürbəyli kəndlərinin** xarici su təchizatı və kanalizasiya sisteminin yaradılması layihəsi çərçivəsində də mühüm işlər görülür. Artıq layihə üzrə Cəbrayıl şəhərində 1,17 kilometr magistral və 0,77 kilometr subartezianlararası su xətlərinin, eləcə də 5,1 kilometr kanalizasiya kollektor və 0,63 kilometr yağış suları xətlərinin, müxtəlif tutumlu 2 su anbarının, 3 subartezian quyusunun, inzibati və köməkçi binaların tikintisi 15-20 faiz icra olunub.

Horovluda anbarlararası 1,5 kilometrlik su, 5,75 kilometr kəhrizlərin suyığıcı və 0,32 kilometr kanalizasiya kollektor xətlərinin, eləcə də 2 su anbarının tikintisi 70 faiz icra olunub. Bununla yanaşı, ərazidə 1 su anbarı və nasos stansiyası tikilir. Şükürbəyli kəndində isə 1 su anbarı inşa olunur.

Qurumdan verilən məlumata görə, işğaldan azad olunmuş ərazilərdə su təchizatı ilə bağlı təxirəsalınmaz işlərin icrası layihəsi çərçivəsində Ağdam şəhərində 5, Cəbrayıl şəhərində 1, Kəlbəcər şəhərində 1 modul tipli tullantı sutəmizləyici qurğunun tikinti-quraşdırma işləri başa çatdırılıb. Xocalı rayonunda isə 2 subartezian quyusu qazılıb, 3 kilometr magistral su xətti çəkilib.

## 5 aylıq ÜDM – 50 milyard manat

**Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin yanvar-may aylarında ölkədə 50 milyard 99,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər isə 3 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 3,9 faiz çoxalıb.**

ÜDM istehsalının 36,2 faizi sənaye, 9,9 faizi ticarət, 7 faizi nəqliyyat, 6,2 faizi tikinti, 4 faizi kənd təsərrüfatı, 2,8 faizi turistlərin yerləşdirilməsi, ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,7 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,4 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 4896,1 manata çatıb.

Qeyd edək ki, hesabat dövründə ÜDM-in artımını qeyri-neft-qaz sektorunun inkişafı şərtləndirib. Başqa sözlə, respublikada artımın əsas mənbəyini qeyri- neft-qaz sektoru təşkil edib. Şübhəsiz ki, bu məsələdə xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olan siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici ölkələrdən birinə çevirib.




## Azərbaycanın Avropaya verdiyi qaz 50 milyard kubmetrə çatdı



**Energetika Nazirliyindən qəzetimizə verilən məlumata görə, Azərbaycandan Avropaya tədarük edilən təbii qazın həcmi artıq 50 milyard kubmetrə çatıb. Bildirilib ki, Cənub Qaz Dəhlizinin son komponenti olan Trans-Adriatik qaz kəməri (TAP) vasitəsilə Avropaya qaz nəqlinə başlanandan indiyədək ixrac həcmi əhəmiyyətli dərəcədə artmaqla yanaşı, Azərbaycanın qaz təchizatı coğrafiyası da genişlənib.**

Məlumatda eyni zamanda, qeyd edilir ki, Gürcüstan və Türkiyə ilə yanaşı, Avropanın 10 ölkəsi Azərbaycan qazı ilə təmin olunur.

Xatırladaq ki, 2020-ci il dekabrın 31-dən TAP vasitəsilə Avropaya Azərbaycan qazının nəqlinə başlanılıb.

# Sənayedə qeyri-neft sektorunun payı artır

*5 ayda bu sahədə məhsul istehsalı 6,4 faiz çoxalıb*



**Ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra olunur, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu da sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanaşı, qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verir.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə qeyri-neft sənayesinin inkişaf etdirilməsi, eləcə də bu sahədə ixrac potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlər isə sözügedən sektorda mühüm növ malların istehsalında getdikcə artmasına səbəb olur. Qeyri-neft sənayesində məhsul istehsalının artması isə ölkənin ixrac potensialının genişləndirilməsinə mühüm töhfələr verir.

Azərbaycanda qeyri-neft sənayesi müəssisələrinin yaradılması dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi xüsusi aktuallıq kəsb edir. Yerli xammal hesabına ölkənin qeyri-neft sənayesində rəqabətqabiliyyətli, ixracyönümlü məhsulların istehsalı üçün isə imkanlar olduqca genişdir. Bu baxımdan son illər yaradılmış sənaye parkları və məhəllələri müstəsna rol oynayır. Təsadüfi deyil ki, sözügedən zonalarda yüksək texnologiyalar əsasında fəaliyyət göstərən müəssisələr ölkənin sənaye potensialının artmasına, ixracyönümlü məhsulların istehsalında mühüm yer tutur.

Bu ilin yanvar-may aylarında ölkənin sənaye müəssisələrində 26 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Məhsul istehsalı neft-qaz sektorunda 2,8 faiz azalsa da, qeyri-neft-qaz sektorunda 6,4 faiz çoxalıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye məhsulunun 62,2 faizi mədənçıxarma, 31 faizi emal, 5,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilib. Sənayedə qeyri-dövlət sektorunun payı 79,8 faizə yüksəlib. Ümumi istehsalın 88,9 faizi sənaye məhsullarının istehsalı, 11,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.

İstehsal edilən məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranan ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 iyun 2025-ci il vəziyyətinə 835 milyon manatlıq hazır məhsul olub. Ehtiyatların 51,3 faizi Bakı, 13,6 faizi Sumqayıt, 3,9 faizi Gəncə, 0,7 faizi Şirvan şəhərlərinin, 1,5 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalıb. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınan və satış üçün nəzərdə tutulan 107,3 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

## Qızıl hasilatı 64 faiz artıb



**Dövlət Statistika Komitəsindən bildirilib ki, bu ilin yanvar – may aylarında qızıl istehsalı 63,9 faiz artaraq 1 ton 297,8 kiloqram təşkil edib. Hesabat dövrü ərzində gümüş istehsalı isə 23,8 faiz artaraq 1 ton 686,9 kiloqrama çatıb.**

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Cəlal Ünsizadənin “Kəşkül”ü və Türkiyə həyatı

**Azərbaycan milli mətbuatı tarixində və maarifçilik hərəkatında, mətbəəçilik və nəşriyyat sisteminin qurulmasında Ünsizadə qardaşlarının fəaliyyəti ayrıca bir istiqamət təşkil edir. Qədim Şamaxının köklü soyağacına mənsub olan Əbdülrəhman ağa Ünsinin ailəsində dünyaya göz açan Səid, Cəlal və Kamal Ünsizadələrin həyatı, fəaliyyəti, dövrün şərtlərinə uyğun yenilikçi davranışları, anadilli mətbuatın inkişafına verdikləri töhfələri barmaqla saymaq mümkün deyil.**



Ruhani mahiyyətindən uzaqlaşmayıb maarifçilik missiyasını səbrlə, uğurla davam etdirib mənsub olduğu xalqın tərəqqisinə yardım etmək bu qardaşların əsas həyat kredoları idi. Ailənin ilk övladı Səid Ünsizadə öncə Şamaxıda ailə çevrəsində, sonra Bağdadda ali dini təhsil alıb öz yurduna qayıdır, dövrün bəzi islam təhsilli üləmalarından fərqli yol tutur. Bir tərəfdən Şamaxıda, Bakıda və sonra Qafqaz Ruhanilər idarəsində məsul vəzifələr tutsa da, millətin gələcəyini elmdə, təhsildə, maarifçilikdə görür. 1877-ci ildə Şamaxıda şəriət dərsləri ilə yanaşı, rus, ərəb, fars dillərini öyrədən, təhsil verən dünyəvi məktəb açır.

Sonra Səid Ünsizadə Qafqaz Ruhanilər İdarəsində çalışmaq üçün Tiflisə gedir və burada arzuladığı ideyaların həyata keçirilməsi üçün şərait yaranır. "Əkinçi" qəzetinin ilk davamçısı olaraq o, 1879-cu ildə "Ziya"nı nəşr etdirir, daşbasma üsulu ilə ilk mətbəəni qurur. "Ziya" mətbəəsində təkcə "Ziya" qəzeti ərsəyə gəlmir, kitablar, dərsliklər də nəşr olunur. Səid Ünsizadə "dildə, fikirdə, əməldə birlik" düsturunun müəllifi, müxtəlif coğrafiyalarda yaşayan türklərin ortaq əlifba, dil ətrafında birliyini təbliğ edən İsmayıl bəy Qaspıralının "Tərcüman"a qədərki nəşrlərini də öz mətbəəsində çap etdirir.

Böyük qardaşın bu maarifçilik missiyası o biri oğulların həyatına da ciddi təsir göstərir, onların gələcək həyatını müəyyənləşdirir. Ailənin ikinci övladı Cəlal Ünsizadənin (1854-1933 ) fəaliyyəti, təəssüf ki, indiyə qədər yetərincə öyrənilməyib. 1878-ci ildə Şamaxıdan Tiflisə köçən Cəlalın ilk işi Azərbaycan türk balalarının inkişafına, müasir elmlərə vaqif olması üçün məktəb açması olur. Onun ikinci ən böyük işi, fəaliyyəti isə mətbəəçiliyi dərindən öyrənməsi və qəzetçiliyin sirlərini mənimsəməsi olur.

Səid əfəndi "Ziya"nı nəşr etməyə başlayanda Cəlala da qəzetçilik təcrübəsini öyrədir. Bu baxımdan Cəlal Ünsizadə bir qədər sonra müstəqil qəzet çıxarmaq istəyində olur. O, 1882-ci il may ayının 1-də Qafqaz canişinliyi Baş İdarəsinə yazdığı məktubda "Kəşkül" adlı jurnal nəşr etmək istədiyini bildirirdi.

Cəlal Ünsizadəyə görə, mətbuat da başqa maarif və mədəniyyət ocaqları kimi xalqın gözünü açır, onu oxumağa alışdırır, mədəni yüksəliş və tərəqqiyə təkan verir. Bu amal və məqsədə xidmət edən C.Ünsizadənin mətbuat yaratmaq fikri müsbət cavablandırılır. Qafqaz Senzura Komitəsinin 1883-cü ildə Peterburq Baş Mətbuat İdarəsinə göndərdiyi məlumatda aydın olur ki, "Kəşkül" jurnalının nəşrinə 1882-ci il oktyabr ayının 20-də icazə verilib. Qafqaz Senzura Komitəsinin bu məlumatından bəlli olur ki, jurnal ərəb, fars və Azərbaycan dillərində nəşr ediləcəkdi.

"Kəşkül"ün ilk nömrəsi 1883-cü ilin yanvarında çıxır, 11 nömrədən sonra jurnala çevrilir. Geniş bir məramnamə ilə nəşrə başlayan "Kəşkül" mövzu dairəsinə görə "Ziya" ("Ziyayi-Qafqaziyyə"dən) fərqlənirdi. Cəlal əfəndi Azərbaycan milli mətbuatının yaranmasında və inkişafında Həsən bəy Zərdabinin tarixi xidmətlərinə böyük qiymət verir, "Əkinçi" qəzetini milli mətbuatın bünövrəsi adlandırırdı.

Jurnalın redaksiyası Tiflisdə dar bir küçədə, iki yarımqaranlıq otaqda yerləşirdi ki, bu da işlərin normal məcrada getməsi üçün əngəl yaradırdı. Otaqların birində, ən ortada iri miz, divarın yanında isə yazı masası qoyulmuşdu. Masanın üzərində isə abunə yazılmış qəzetlərin dəstləri düzülürdü.

Cəlal əfəndinin jurnalın ilk nömrəsinə yazdığı proqram mahiyyətli məqalə xüsusi ilə maraqlıdır. O, bu məqalədə "Kəşkül"ün xalqa bağlı olacağını bildirərək yazırdı: "Məcmuəmizin dili və əsil ibarəsi məmləkətimizin müsəlmanlarının məfhumu olan türki-Azərbaycan dilindən ibarət olacaqdır". C.Ünsizadə "Kəşkül"ün ilk saylarında "vətənimiz", "Azərbaycan" kəlmələrini tez-tez işlətməklə xalqda milli kimlik və milli şüur hissi formalaşdırmağa çalışırdı.

C.Ünsizadə Tiflisdə yaşayan bir çox görkəmli şəxsiyyətləri "Kəşkül"ün ətrafında toplamışdı. Tiflisin baş hakimi Babov, maarif məclisinin keçmiş müdiri Qursaladze, Qori Müəllimlər Seminariyasının müəllimi A.O.Çernyayevski, ədib və jurnalist Eritsov və başqaları "Kəşkül"ün əsas əməkdaşları idilər. Həmçinin Firudin bəy Köçərli, S.M.Qənizadə, M.F.Axundovun oğlu Rəşid bəy Axundov, Gülməhəmməd bəy Kəngərli nəşrin fəaliyyətində yaxından iştirak edirdilər. Xüsusən Firudin bəy Köçərli və Gülməhəmməd bəy Kəngərli Cəlal Ünsizadənin yaxın dostları idi, redaksiya bir müddət Kəngərlinin evində yerləşdi.

Cəlal əfəndi təhsil görmüş gəncləri redaksiyaya cəlb etməyə çalışır, onlarla yaxından maraqlanırdı. Müəllim və tələbələrlə təmas qurur, onların yaradıcılıq istedadından yararlanmağa səy edirdi. "Kəşkül"də dil, ədəbiyyat, incəsənət, elm, maarif kimi bir çox məsələlərə dair nəzəri və publisist məqalələr, orijinal bədii əsərlər, rus, Avropa və Şərq ədəbiyyatından tərcümələr çap olunurdu.

“Kəşkül” ideya-siyasi istiqamət və taktiki baxımdan "Əkinçi" və "Ziya"nın yolunu gedir, hətta bir çox məsələlərdə "Əkinçi"yə artıq dərəcədə meyil göstərirdi. Bu cür qəzetçilik siyasəti çar senzurası tərəfindən diqqətə alınmaya bilməzdi. Ona görə də "Kəşkül" senzura təqiblərinə daha çox məruz qalırdı. Jurnalın səhifələrirdə "Kəşkül" “vəqti-müəyyəndə çıxmadı" ifadəsinə tez-tez rast gəlinir.

Bu mətbu orqanda dil-ədəbiyyat, incəsənət, elm və maarifə dair nəzəri-publisistik materiallar, bədii-publisistik yazılar, rus, Avropa və Şərq ədəbiyyatından tərcümələr də çap olunurdu. Klassik Azərbaycan ədəbiyyatının böyük simalarından olan Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı "Kəşkül"də geniş şəkildə işıqlandırılıb.

İslamda fanatizmin tənqidi "Kəşkül"də özünü qabarıq şəkildə büruzə verirdi. Bu mətbu orqanın səhifələrində din pərdəsi altında aparılan mövhumatçılıq tənqid edilirdi. İslam dininin əsaslarına toxunmadan cəhalət yayan ruhani zümrə ciddi tənqidə məruz qalırdı. "Kəşkül" özünün 1889-cu il tarixli 81-ci sayında yazırdı: "Bu zümrənin çoxusu elmsizdir". Qəzet satirik məqalələrinin birində ruhani idarələrinin mövhumatçılıq siyasətinə qarşı çıxırdı: "Zira bu attestatlı ruhanilərimizdən hansı birinə yaxın gedib, a quzum, yaxud a qoyunum, harada təhsili ümumi-finun eylədiniz" deyə sual eyləsək, cavabında əblahanə bir təbəssüm ilə iktifa eylər".

Nəşr dövrün bir sıra aktual məsələlərinə, beynəlxalq hadisələrə də toxunur, bu səpkidə məqalələr dərc edirdi. İlk sayında İngiltərənin və çarizmin Orta Asiyada apardığı müstəmləkəçilik siyasəti, Şeyx Şamilin rəhbərliyi altında aparılan milli azadlıq hərəkatı barədə oxucuya məlumat verirdi. "Kəşkül"də çıxan sosial-siyasi yazıların əksəriyyəti rus dilində nəşr olunan mərkəzi qəzetlərdən, yaxud yayılmasına icazə verilmiş xarici mətbu orqanlardan götürülürdü. Sonra isə buna icazə verilmədi. Senzura Komitəsi bu tip yazıların Qafqaz müsəlmanları arasında yayılmasını təhlükəli hesab edirdi.

Senzor "Kəşkül"ün "Əl-Qahirə" qəzetindən "məsəleyi-ermənəyyə" başlıqlı məqaləsinin bir abzaslıq xülasəsini də qadağan etdi. Xülasə bundan ibarət idi: "Əl-Qahirə" məqaleyi-məxsusində yer üzündə Ermənistan deyilən ölkənin heç bir zaman mövcud olmadığını və coğrafi dəlayil və bərahim ilə bəyan eyləmişdir".

Cəmiyyətin həyatında baş verən dəyişiklikləri vaxtında oxuculara çatdırmaq istəyən "Kəşkül" XIX əsrin sonlarında Azərbaycanda baş verən milli oyanış və milli özünüdərk prosesinin də iştirakçısına çevrildi. Cəmiyyətdə azərbaycançılıq şüurunun oyanmasında "Kəşkül"ün fəaliyyəti danılmazdı. Millət və din məfhumlarının ayrı-ayrı şeylər olduğunu xalqa çatdıran, bu məsələyə daha geniş yanaşma tərzi ortaya qoyan "Kəşkül"çülər ictimai-siyasi şüurun inkişafına da məxsusi töhfələr verdilər .

Jurnal məqalələrinin birində azərbaycanlı ilə əcnəbinin əhvalatı, onların vağzalda bir-birinə rast gəlib həmsöhbət olmaları, əcnəbinin azərbaycanlıdan hansı millətə məxsusluğu barədə sualına cavabı da o dövrun milli kimlik axtarışlarının nəticəsi olaraq maraq doğurur. Əcnəbinin "nə millətdənsən" sualına soydaşımız üç dəfə "müsəlmanam" cavabını verir. "Müsəlman" sözünün dini bir anlayış olduğunu bildirən əcnəbi soydaşımızın milli kimliyini bu formada bildirir:

– Əfəndim, doğrusu insan üçün nə millətdən olduğunu bilməmək böyük eyibdir. Belə olanda gərək bilməyəsən atan kimdir, anan kimdir. Siz o tayfadan deyilmisiniz ki, sizə tatar deyirlər?

– Bəli, bizə tatar deyirlər.

– Hə, indi bildim siz nə millətdənsiniz. Siz tatar deyilsiniz. Tatar Krımda, Qazanda olan müsəlmanlardır. Sizin millət Azərbaycandır".

Bu misaldan göründüyü kimi, "Kəşkül" xalqa milli şüur aşılayır, din və milliyyət fərqinin açımını verir, xalqın milli kimliyini xatırladır və azərbaycançılıq ideyasını yayırdı. Jurnal ilk dəfə olaraq ümmət və millət anlayışlarının fərqli məzmuna malik olduğunu, öz həmvətənlərinin milliyyət baxımdan müsəlman deyil, azərbaycanlı-türk olduqlarını anlatmağa çalışırdı. Burada bir məsələ aydın idi ki, bu ilk təşəbbüs hələ azərbaycanlıların etnik mənsubiyyətini konkret müəyyənləşdirmirdi.

Yusuf Akçuralı "Türkçülüyün tarixi" əsərində "Kəşkül" haqqında ona verilən məlumatlar əsasında fikir yürüdərək yazırdı: "Kəşkül" azəri şivəsini İstanbul türkcəsinə yaxınlaşdırmaq məqsədi ilə nəşr olunurmuş, bu dərgidə azəri, cığatay, noqay və Osmanlı şivələrində türkcə məqalələr, ərəbcə və farsca yazılar da nəşr olunurmuş. Müxtəlif müsəlman dillərində yazılan məqalələri özündə əhatə edəcəyi üçündür ki, bu dərgiyə sahibləri "Kəşkül" adını vermişlər. Azəri şivəsini Qərb, İstanbul türkcəsinə yaxınlaşdırmaq qayəsini təqib etdiyi üçün "Kəşkül" və "Ziya"nın sahib və yazarlarının çar hökuməti tərəfindən təqiblərə və sorğu-suala məruz qalmış olduqları da Cəlal bəyin (C.Ünsizadənin - red.) məlumatları sırasındadır. Hər iki qardaşın Səid əfəndi ilə Cəlal bəyin Qafqazı tərk etməyə məcbur olmaları da bu hadisənin bir nəticəsi imiş". Akçuralının fikrincə, "Ziya" kimi "Kəşkül"də türklük məfkurəsini deyil, islam birliyi görüşünün daşıyıcısı olub.

Cəlal Ünsizadənin fəaliyyətinin bir istiqaməti qardaşı ilə birlikdə mətbəə açmaq, senzorun razılıq verdiyi kitabların çapı ilə məşğul olmasıdır. Bu arzusunu Cəlal əfəndi 1889-cu ildə reallaşdıra bildi. Rəsmi sənədlərdən bəlli olur ki, mətbəə açmaq üçün Ünsizadə qardaşları xeyli müddət çalışır, nəhayət ki, Tiflis polis idarəsinin mətbəəsini satın ala bilirlər. C.Ünsizadə mətbəəsini qəzetin adı ilə "Kəşkül" mətbəəsi və ya "Mətbeyi-cərideyi Kəşkül" adlandırır, müxtəlif məzmunlu kitablar, risalələr nəşr edir və bu yolla maarifçilik missiyasını davam etdirir.

Cəlal əfəndi mətbəəçilik işinə başlaması barədə yazır: "Burada (Tiflisdə - red.) bir islam mətbəəsi ehdas elədiyimizdən məqsudumuz, sadəcə, qəzet təb və nəşr eləməkdə deyildir. Millətdaşlarımız qəzetə və ovraqi-həvadisdən ziyadə maarifə xidmət edən təlim kitab və risalənin möhtac olduqları üçün bu yolda dəxi səy və əməyimizi düruğ tutmayacağıq". Məqalədə kitab, o cümlədən tərcümə əsərlərinin çapının, xüsusən kitab nəşrinə senzuradan icazə almağın çətinliyindən yazırdı.

Mətbəədə Azərbaycan məktəbləri üçün dərsliklər, ədəbi-bədii əsərlər, təqvimlər müntəzəm surətdə nəşr olunurdu. Füzulinin "Leyli və Məcnun", Əsgər bəy Adıgözəlovun (Goraninin) "Qocalıqda yorğalıq" əsəri, M.Lermontovun "Hava gəmisi", A.Çernyayevski və S.Vəlibəyovun "Vətən dili", "Kəlilə və Dimnə" kitabları "Kəşkül" mətbəəsinin çap etdirdiyi nəşrlər sırasındadır. Bunlarla yanaşı, "Kəşkül"də Zaqafqaziya Şeyxülislamı Əbdüssəlam Axundzadənin "Ümtədül əhkam", "Tarixi müqəddəsi ənbiya" kimi dini görüşləri təbliğ edən kitablar da çap edilib.

"Kəşkül" bağlandıqdan sonra Cəlal Ünsizadə bir müddət Tiflisdə Kadet korpusunda müəllimlik edib. Qardaşı Səid Ünsizadə İstanbula yerləşdikdən sonra Tiflisdə çox da qalmayıb, üzləşdiyi çətinliklər, çar rejiminin yaratdığı psixoloji gərginliyə baxmayaraq Türkiyəyə mühacirət edir. İstanbul mühacirətinin ilk ilində Cəlal əfəndi rəsmi şəkildə Türkiyə dövlətinə müraciət edərək işlə təmin olunmasını, təhsil sahəsində çalışma istəyində olduğunu çatdırır. Amma nədənsə ilk müraciətinə müsbət cavab ala bilmir. Görünür, Cəlal əfəndinin şəxsiyyəti və fəaliyyətinin araşdırılması üçün müəyyən bir vaxt, zamana ehtiyac duyulur. Bir müddətdən sonra Cəlal əfəndi Ünsizadəyə bəlli maaş təyin olunur, əcnəbi mətbuatı idarəsində işlə təmin edilir.

İş və maaşla təmin olunmasına baxmayaraq C.Ünsizadə 1908-ci ildə İstanbulda "Daniş" adlı qəzet nəşr etmək üçün rəsmi dövlət qurumlarına müraciət edir. Çıxaracağı qəzetin qısa proqramını da məktuba əlavə edən C.Ünsizadə "Daniş"in sənaye, elm, siyasət və ədəbiyyat mövzularında məqalələr çap edəcəyini nəzərə çatdırırdı. Qəzet nəşri üçün xüsusi təcrübəsinin, bilik və bacarığının olduğunu xüsusi vurğulayan C.Ünsizadənin bu arzusu baş tutmur.

İstanbulda yaşadığı müddətdə müxtəlif qəzetlərlə əməkdaşlıq edib məqalələr yazır, maddi-mənəvi ehtiyaclarını ödəyir. Bu illər ərzində "Məlumat" qəzetində çalışır, xarici nəşrlərdə Türkiyə ilə bağlı önəmli bilinən məqalələri, xəbərləri tərcümə edir, verilən sifarişləri yüksək ustalıqla yerinə yetirir. Cəlal əfəndinin tərcümə etdiyi məqalələrdən biri Peterburqda nəşr olunan "Novosti" qəzetində çap olunmuş türk-yunan hərbinə aid mətndir ki, bu yazı hazırda Türkiyə arxivlərində qorunur.

Türkiyədə yaşamasına baxmayaraq, Bakı, Tiflis, Dağıstan və digər bölgələrdəki qohum və dostları ilə daim əlaqədə olan Cəlal Ünsizadə 1918-ci ildə Qafqaz İslam Ordusu Azərbaycanın istiqlal savaşına qatılanda doğulduğu Vətənə gəlir. Nuru Paşa komandanlığında istiqlaliyyətini elan edən Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünün təmini, erməni-bolşevik birləşmələrinə qarşı mübarizədə vaxtilə Türkiyəyə köç edən ziyalılar da iştirak edir. Azərbaycan Cümhuriyyətinin qurucu liderləri ilə Gəncədə yerləşən Nuru Paşa arasında münasibətləri tənzimləmək üçün Türkiyədən göndərilən nümayəndələr içərisində Cəlal Ünsizadə də var. Bu, onun Türkiyə dövləti-ərkanının inamı, etibarı və özünün nüfuzu ilə bağlı idi.

Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın siyasi müşaviri Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə ilə birlikdə gənc Azərbaycan Cümhuriyyətində baş verən hadisələrə, hərbi-siyasi gərginliyə şahid olan Cəlal Ünsizadə burada 13 hissədən ibarət "Bi şübhə və bi şəkk" adlı şeir yazıb. Bu şeiri Əli bəy Hüseynzadəyə xatirə olaraq verir. İctimai-siyasi məzmun daşıyan həmin şeiri müasir əlifbaya çevirərək Türkiyənin məşhur mətbuat tarixçisi, professor Yavuz Akpınar çap edib. Satirik bir üslubda Gəncədə və Azərbaycanın digər bölgələrində əhalinin müstəqillik, torpaq bütünlüyü savaşında yetərincə iştirak etməmələri əsərdə tənqid olunub.

Qazi Mustafa Kamal Paşanın komandanlığı ilə Qurtuluş savaşının sonunda müstəqil Türkiyə Cümhuriyyətinin qurulması Cəlal əfəndini də sevindirməyə bilməzdi. Türkiyə Cümhuriyyətinin qurulmasından sonra C.Ünsizadə İstanbuldan Ankaraya köçür. Mətbuat idarəsində əvvəlki fəaliyyətini davam etdirir, tərcümələr edir. Yeni Türkiyənin qurulması Cəlal əfəndidə böyük ümid, inam yaradır və o qəzet yaratmaq istəyini təkrarən rəsmi dairələrə çatdırır. Bu dəfə 1923-cü ildə Türkiyə Böyük Millət Məclisinə müraciət edən mətbuat fədaisi rusca qəzet nəşr etmək istəyini təkrarən dilə gətirir. Amma bu istəyi qarşılıqsız qalır.

Sonrakı illərdə Cəlal əfəndinin bir neçə dili, xüsusən rus dilini mükəmməl bilməsi onu Türkiyə Xarici İşlər Nazirliyində tərcümə bölməsində çalışmasına imkan yaradır. O, həmin dönəmdə Ankarada yaşayan Zəki Vəlidi Toğan ilə təsadüf nəticəsində görüşür, əvvəlki dost münasibətləri yenidən başqa axarda davam etdirir. Zəki Vəlidi uzun illərdən sonra Cəlal Ünsizadəni görəndə xeyli çaşıb qalır. Çünki keçmiş dostlarının bəziləri kimi o da Cəlal əfəndinin çoxdan vəfat etdiyini düşünür. 1930-cu illərdə Türkiyə Xarici İşlər Nazirlyiində konsulluq işləri müdirliyində tərcüməçi kimi çalışan Cəlal Ünsizadə bir qədər sonra Əfqanıstan səfirliyində tərcüməçi kimi fəaliyyətini davam etdirir.

Azərbaycan mətbuat tarixində böyük fədakarlıqlar göstərən C.Ünsizadə 1933-cü ildə Ankarada vəfat edib, məzarı bilinmir. Onun dünyasını dəyişməsi barədə Türkiyə mətbuatında məlumatlar, nekroloq çap olunub. 19 fevral 1933-cü il tarixli "Hakimiyyəti-milliyyə" qəzetində "Bir mətbuat əməkdarı Cəlal Ünsi bəy" adlı nekroloqməqalədə Cəlal əfəndi Ünsizadənin qısa tərcümeyi-halı ilə yanaşı, şəxsi keyfiyyətləri barədə də məlumatlar verilib.

***Akif AŞIRLI,***
***Əməkdar jurnalist***

**Məqalə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə Azərbaycan Türk Ocağı İctimai Birliyinin “Turan işığında 150 il” layihəsi çərçivəsində hazırlanıb.**

# Milli mətbuatımız “Əkinçi” ənənəsindən güc alır

**Qığılcımdan alov yarandığı kimi, bir udum azadlıq havası da əsarətdə qalmış millətin qəlbində nəfəsə çevrilir. Azərbaycanın ilk milli qəzetinin işıq üzü gördüyü 22 iyul 1875-ci il tarixi belə bir başlanğıc oldu. Xalqımızım milli oyanış nəbzi o dönəmdən “Əkinçi” ilə vurmağa başladı. Bu qəzet düşüncələrə oyanış toxumlarını səpdi, milli yaddaşda öyünclü izlər buraxdı.**




XIX əsrin əvvəllərində milli aydınlarımız ana dilində qəzet buraxmağa cəhd etmişdilər. Bu özülü yaratmaq əsrin sonuncu rübündə Həsən bəy Zərdabiyə nəsib oldu. “Əkinçi” çar Rusiyasının azadlığını əlindən aldığı Azərbaycan türklərinin milli varlığını təcəssüm etdirdi. Bu qəzet təkcə maarifçilik ilə kifayətlənmir, azad və müstəqil düşüncəyə yol açan kimlik ideyasını da irəli sürürdü. “Əkinçi” milli qəzet kimi məmləkətin aynası olmağa çalışırdı. Amma senzuranın sərt küləkləri qaranlıqda yandırılan bu şamın üstünə zülmət əsdirirdi. “Əkinçi” isə usanmadan məktəbdən məhrum edilən uşaqlara müəllim, haqqı əlindən alınan məzlumlara nicat yolu göstərirdi. “Əkinçi”nin səpdiyi toxumlar “Ziya”, “Kəşkül” nəşrləri göyərtdi. “Əkinçi”nin missiyası öz bəhrəsini verməyə başlayırdı. 1881-ci ildə fəaliyyətə başlayan rusdilli “Kaspi” qəzeti də 1896-cı ildən milli mövqe qazandı, “Şərqi rus” ilk milli qəzet “Həyat”ı ərsəyə gətirdi.

XX əsrin əvvəllərində satirik “Molla Nəsrəddin” jurnalı azərbaycançılıq, elmi-nəzəri “Füyuzat” jurnalı “türkləşmək, islamlaşmaq, avropalaşmaq” ideyasını yaymağa başladı. 1915-cı ildə Məhəmməd Əmin Rəsulzadənin yaratdığı “Açıq söz” qəzetinin məslək yolunu ilk dövlət qəzeti “Azərbaycan” davam etdirdi.

1920-ci ilin 28 aprelində bolşevik işğalı “Azərbaycan” qəzetini qapatsa da, “Əkinçi”nin açdığı yolda milli mətbuatımız xalqa xidmətini açıq-gizli yollarla davam etdirdi. Amma hər qaranlıq gecənin aydın səhəri olur. Milli mətbuatımız da xalqımız kimi azadlığa SSRİ dağılandan sonra qovuşdu. KİV haqqında Qanunun qəbul edilməsi, senzuranın ləğvi ölkəmizdə söz və fikir azadlığına meydan açdı. 2021-ci ildə “Media haqqında” qanun söz azadlığının hüquqi bazasını yeniləşdirərək jurnalistikanı çağdaş dövrün tələblərinə uyğunlaşdırdı.

Azərbaycan milli mətbuatının yaranmasının 150 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin 25 aprel 2025-ci il tarixli Sərəncamı azad sözə verilən yüksək dəyəri ifadə edir. Bu o deməkdir ki, informasiya əsrində də “Əkinçi” ideyaları yaşayır. Texnologiya dəyişsə də, məqsəd və yol dəyişməyib. Zaman mətbu sözü sınağa çəkir. “Əkinçi” ənənəsinə sadiq qalan milli mətbuatımız bu sınaqdan da üzüağ çıxacaq.

***Nuranə QULİYEVA,***
***BDU jurnalistika fakültəsinin***
***IV kurs tələbəsi***

# “Sözün 150 ili”



**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) anadilli mətbuatımızın 150 illik yubileyinə həsr olunmuş “Sözün 150 ili” adlı görüş keçirilib.**

Universitetin rəhbərliyi, professor-müəllim heyəti, Azərbaycan mediasının tanınmış simaları və jurnalistlərin iştirak etdiyi mərasimdə ali təhsil ocağının mətbuat katibi Şahanə Müşfiq milli mətbuatımızın tarixinə qısa nəzər salaraq qeyd edib ki, 150 il öncə Həsən bəy Zərdabinin qələmindən süzülən ilk sətirlər bu torpaqda azad fikrin, ictimai düşüncənin və mədəni maarifçiliyin təməlini qoydu. “Əkinçi” ilə başlayan bu yol bu gün də davam edir – qələmlə, səslə, səhnə ilə…

ADMİU-nun rektoru – Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudova Azərbaycan mətbuatının 150 illik çox şərəfli və tarixi bir yol keçdiyini deyərək, bu yolda Mədəniyyət və İncəsənət Universitetinin də izi olduğunu vurğulayıb. O bu gün mətbuatın müxtəlif sahələrində, xüsusən televiziyada ADMİU-nun məzunlarının uğurla fəaliyyət göstərdiyini vurğulayıb və universitet rəhbərliyinin, müəllimlərinin onlarla fəxr etdiyini əlavə edib.

Milli Mətbuatımızın 150 illik şərəfli yolunu əks etdirən videoçarx nümayiş olunub.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid çıxış edərək milli mətbuatın 150 illik yubileyinin qeyd olunması ilə bağlı Prezident İlham Əliyevin müvafiq sərəncamını dövlətin jurnalistika və onun təmsilçilərinə diqqətinin daha bir nümunəsi kimi dəyərləndirib.

Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru, Beynəlxalq Yazıçılar Gildiyasının üzvü, Əməkdar jurnalist, “Ədəbiyyat və incəsənət” portalının təsisçisi Varis Yolçiyev çıxışında mədəniyyətin, ədəbiyyatın mətbuatdakı əksindən danışıb və bunun əhəmiyyətini diqqətə çatdırıb.

Mədəniyyət Nazirliyinin Respublika Xatirə Kitabı Redaksiyasının və “Yada düşdü” jurnalının baş redaktoru Nəzakət Məmmədova və ADMİU-nun kafedra müdiri, professor, Əməkdar incəsənət xadimi Əli Əmirli də yubileyin məna və önəmindən danışıb, inkişaf edən texnologiyalara görə çətin dövrlərini yaşayan ənənəvi çap mediasının əhəmiyyətini qeyd ediblər.

Daha sonra ADMİU-nun məzunları – Mədəniyyət Telekanalının direktor müavini Bəhruz Niftəliyev, İdman Telekanalının direktoru Zaur Zeynalov, “moderator.az” saytının baş redaktoru, teatrşünas Xəyalə Rəis, Baku TV-nin redaktoru Emil Hacıyev öz tələbəlik illərindən və mətbuatdakı fəaliyyətlərindən danışıblar, 150 illik yubiley ərəfəsində məzun olduqları universitet tərəfindən belə bir tədbirlə yad edilməyin sevinc və qürurunu bölüşüblər.

Tədbirin bədii hissəsində tələbələr Üzeyir Hacıbəylinin “Ordan-burdan” felyetonundan və “O olmasın, bu olsun” operettasından parçalar təqdim ediblər. Musiqi ifaları da gecəyə rəng qatıb.

Sonda ADMİU-nun fəaliyyətini hər zaman öz səhifələrində işıqlandıran, daha geniş auditoriyaya təqdim edən bir sıra KİV nümayəndəsinə təşəkkürnamələr və Ş.Müşfiqin müəllifi olduğu, ADMİU-nun müharibə qəhrəmanlarına həsr olunmuş “Sənətdən cəbhəyə” kitabı təqdim edilib.

***Ə.ƏLİYEV***
***XQ***

# AMEA-nın 2 akademiki REA-nın xarici üzvü seçilib

**Rusiya Elmlər Akademiyasının (REA) ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 2 həqiqi üzvü – akademik-katibi, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimov və nazirliyin Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə də qurumun xarici üzvləri seçiliblər.**






Seçkilərin nəticələri barədə məlumatda bildirilib ki, bu il REA-ya yeni xarici üzv seçilən 39 alim dünyanın 20 ölkəsini təmsil edir. Azərbaycanla yanaşı, bu siyahıya Özbəkistan, Qazaxıstan, Belarus, Çin, ABŞ, Finlandiya, İran, İtaliya, İspaniya, İsrail, Braziliya, Macarıstan, Vyetnam və digər ölkələr daxildir.

AMEA-dan XQ-yə bildirilib ki, bu seçkilər Azərbaycan elminin beynəlxalq aləmdə artan nüfuzunun parlaq göstəricisi olmaqla yanaşı, iki ölkə arasında elmi əməkdaşlığın inkişafına dəstək olacaq. Soydaşlarımızın bu beynəlxalq uğuru onların fundamental və tətbiqi elmi fəaliyyətdə qazandıqları nailiyyətlərin, elmin inkişafına, yüksək ixtisaslı elmi kadrların hazırlanmasına verdikləri töhfələrin Rusiya Elmlər Akademiyasında layiqincə qiymətləndirilməsi deməkdir. Bu həm də Azərbaycan elminin qlobal elmi məkanla inteqrasiyasına verilmiş əhəmiyyətli töhfədir.

***T.AYDINOĞLU***
***XQ***

# BDU Cənubi Qafqazda lider ali məktəbdir

**Bakı Dövlət Universiteti ali təhsil sahəsində dünyanın ən nüfuzlu reytinq agentliklərindən olan “Quacquarelli Symonds”un tərtib etdiyi “QS World University Rankings 2026: Top global universities” cədvəlində 688-ci yerdə qərarlaşmaqla daha bir önəmli mövqe qazanıb. Bu nəticə ilə BDU-nun Cənubi Qafqazın bütün ali məktəblərini arxada qoyaraq reytinqdaxili lider olaraq önə çıxması onun beynəlxalq akademik arenada artan nüfuzunu göstərir.**

Bu barədə ali məktəbdən XQ-yə verilən məlumatda bildirilir ki, reytinq sıralaması hazırlanarkən 105 ölkədən 8 min 467 universitetin məlumatları qiymətləndirilib, onlardan yalnız 1501 universitet dünya reytinq siyahısına daxil edilib. Reytinqin hesablanmasında ali təhsil müəssisələrinin akademik nüfuzu, işəgötürənlər arasında tanınma səviyyəsi, elmi nəşrlərin miqdarı və onlara edilən istinadlar, məzunların məşğulluğu göstəriciləri, əcnəbi akademik heyət və tələbə nisbəti, beynəlxalq tədqiqat əməkdaşlıqları və dayanıqlılıq meyarları əsas götürülüb.




BDU-nun bu uğuru son illərdə universitetin elmi fəaliyyətinin intensivləşdirilməsi, tədris və idarəetmə proseslərinin beynəlxalq standartlara uyğunlaşdırılması, habelə qlobal tərəfdaşlıqların inkişafı istiqamətində atılan məqsədyönlü addımların nəticəsi olmaqla yanaşı, həm də elm, təhsil və innovasiyanın inteqrasiyasına əsaslanan strateji yanaşmanın, sənaye və özəl sektorla qurulan funksional əməkdaşlığın, eləcə də insan kapitalının inkişafına yönəlmiş kompleks islahatların göstəricisidir.

Açıqlamada daha sonra qeyd edilir ki, son dövrdə BDU-da qabaqcıl tədqiqat istiqamətlərinin dəstəklənməsi, tətbiqyönümlü layihələrin təşviqi, tələbə-məzun bacarıqlarının əmək bazarının çağırışlarına uyğunlaşdırılması və rəqəmsal transformasiya ilə müşayiət olunan idarəetmə modellərinin tətbiqi kimi mühüm təşəbbüslər həyata keçirilib. Universitet növbəti illərdə daha yüksək pillələrdə yer almağı və Azərbaycanın beynəlxalq ali təhsil məkanında mövqeyinin güclənməsinə töhfə verməyi qarşıya əsas məqsəd kimi qoyur.

Xatırladaq ki, “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası”na əsasən, ölkənin, ən azı, 3 ali təhsil müəssisəsinin dünyada TOP-800-lükdə təmsil olunması strateji hədəf kimi müəyyən edilib. BDU artıq bu hədəfə nail olmağın qürurunu yaşayır və ölkənin digər universitetlərinin də qlobal reytinqlərdə irəliləyəcəyinə inanır.

***T.RÜSTƏMLİ***
***XQ***

# Azərbaycan UNESCO Komitəsində təmsil olunur

**Azərbaycan Respublikası UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Hökumətlərarası Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilib.**




Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, seçkilər iyunun 20-də UNESCO-nun mənzil-qərargahında, “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair” 2005-ci il Konvensiyasının 10-cu Tərəflər Konfransı çərçivəsində baş tutub.

Qeyd edilib ki, 2005-ci il konvensiyasının həyata keçirilməsinə nəzarət edən əsas icra orqanı kimi Hökumətlərarası Komitənin 24 üzvü var və üzvlərin səlahiyyət müddəti 4 ildir. Azərbaycan daha öncə 2019-2023-cü illər arasında Hökumətlərarası Komitədə təmsil olunub.

İllik əsasda toplanan Hökumətlərarası Komitənin əsas funksiyaları sırasına Konvensiyanın məqsədlərinin təşviqi, onun həyata keçirilməsinin monitorinqi, tərəflərin dövri hesabatlarının təhlili və konfransa təqdim olunması, əməliyyat təlimatlarının hazırlanması, ölkələr tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq tövsiyələrin verilməsi, eləcə də Konvensiyanın prinsiplərinin digər beynəlxalq forumlarda təşviqi məqsədilə məsləhətləşmə mexanizmlərinin qurulması daxildir.

Azərbaycanın sözügedən komitəyə növbəti dəfə üzv seçilməsi ölkəmizin mədəni müxtəlifliyin qorunması, mədəni ifadə azadlığının təşviqi və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasətinin, həmçinin bu sahəyə verdiyi yüksək önəmin bariz göstəricisidir.

***XQ***

## 21 İyun Ümumdünya Musiqi Günüdür

# Musiqi insanlığın ruhsal dilidir

**Planetin ahəngini musiqisiz təsəvvür etmək çətindir. Hələ qədim tarixə aid Qobustan qayalarının üzərindəki rəqs səhnələri, birlik simvolu olan qavaldaşlar bu yerləri ilkin rəqs və musiqi mədəniyyətinin formalaşdığı ərazi kimi təqdim edir.**

İyun ayının 21-nin Ümumdünya Musiqi Günü sayılması ideyasını yarım əsr əvvəl amerikalı musiqiçi Coel Koen təklif edib. Bir qədər sonra Fransada bu münasibətlə ilk festival keçirilib. Tədricən Musiqi Günü genişlənərək Avstraliya, Belçika, İngiltərə, Lüksemburq, Almaniya, İsveçrə, Kosta-Rika, İsrail, Çin, Hindistan, Livan, Malayziya, Mərakeş, Pakistan, Filippin, Rumıniya, Kolumbiya kimi ölkələri də əhatə edib. Qardaş Türkiyədə ilk dəfə 2005-ci ildə bu münasibətlə Qu quşları Parkları kimi xalqa açıq yerlərdə, müxtəlif sənətçi və birliklərin pulsuz konsertləri təşkil olunub. Günün xüsusi şüarları “Musiqi dinlə!” və “Küçədəki nota qulaq verin” kimi formalaşıb.

Bu bayramı daha çox haqq edən ölkələrdən biri Azərbaycandır. İlk yazılı ədəbi abidəmiz olan “Kitabi-Dədə Qorqud” dastanında musiqi ilə bağlı bir sıra parçaların mövcudluğu, dastan boyunca müxtəlif musiqi alətlərinin adlarının çəkilməsi musiqimizin qədimliyinə əyani sübutdur. Bu gün Azərbaycan musiqisi, xüsusilə də muğam və xalq mahnılarımız dünya mədəniyyəti xəzinəsinin dəyərli inciləri sırasındadır. Musiqinin inkişafı ölkəmizdə xarakter cizgilərindən sayıla bilər. İliyə, qana hopan ritmlər şən həyatın, nikbin ovqatın təzahürüdür.

Dünyada cəmi bir neçə şəhər var ki, musiqi onun hər daşına, qayasına, ab-havasına hopub. Bu şəhərlər Avstriyanın Vyanası, İtaliyanın Neapolu, Azərbaycanın da Şuşasıdır. Beş il əvvəl erməni işğalından azad edilmiş Şuşa haqlı olaraq “Qafqazın konservatoriyası” təyinini qazanıb. Bu diyarın parlaq nümayəndələri



dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətiriblər. Şuşa Mir Möhsün Nəvvabın, Xarrat Qulunun, Hacı Hüsünün, Sadıxcanın, Məşədi İsinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəci oğlu Məmmədin, Məşədi Məmməd Fərzəliyevin, İslam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Rəşid Behbudovun, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Məşədi Cəmil və Fikrət Əmirovların, Qurban Pirimovun, bəstəkarlardan Üzeyir, Zülfüqar, Soltan və Niyazi Hacıbəyovların, Əfrasiyab Bədəlbəylinin, Əşrəf Abbasovun və Süleyman Ələsgərovun vətənidir.

Azərbaycan muğamı 7 noyabr 2003-cü ildə UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunub. Daha 5 il sonra Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış bu qurumunun Qeyri-maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilib.

Danılmaz faktdır ki, sivilizasiyalar və mədəniyyətlərarası dialoqa töhfə verən Azərbaycan bununla ümumdünya mədəni irsini də zənginləşdirir. Ölkəmizdə keçirilən ənənəvi “Xarıbülbül”, Qəbələ musiqi festivalları, Beynəlxalq Muğam Müsabiqəsi ətrafına çoxsaylı xarici qonaqları və sənətsevərləri toplayır. 1995-ci ildən isə 18 sentyabr “Üzeyir Musiqi Günü” kimi təqvimə düşüb. Bu münasibətlə respublikamızda bir çox konsert, tədbir və sərgilər təşkil olunur. Üç ay sonra dahi bəstəkarın anadan olmasının 140 illik yubileyi ilə əlaqədar daha bir möhtəşəm Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

Musiqimizi dünya arenasına çıxarmış ünlü bəstəkarlarımız Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Cahangir Cahangirov, Tofiq Quliyev və digərləri ehtiramla yad olunurlar. Gözəl səs sahibləri Bülbül, Rəşid Behbudov, Müslüm Maqomayev, Şövkət Ələkbərova, Lütfiyar İmanov, Polad Bülbüloğlu, Zeynəb Xanlarova dünya salonlarını lərzəyə salıblar.

Elə bu günlər Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanda “Muğam aləmi” VII Beynəlxalq Musiqi Festivalı keçirilir. Bayrama ümumilikdə 25-dən çox ölkədən 200-dən artıq ifaçı, tədqiqatçı və qonaq qatılıb. Festival çərçivəsində Azərbaycan, Türkiyə, Tacikistan, Özbəkistan, Səudiyyə Ərəbistanı və Çindən olan gənc istedadların iştirakı ilə növbəti muğam müsabiqəsi təşkil edilib. Sabah başa çatacaq festivalın proqramına XIII əsrin görkəmli musiqişünası Səfiyəddin Urməvinin nəzəri və praktik irsi ilə bağlı simpozium, İçərişəhərdə Azərbaycan radiosunun 1950–60-cı illərin “Muğam saatı” proqramı əsasında interaktiv səs performansı və “Muğam 12” musiqi marafonu da daxildir. Festival boyunca Azərbaycanın tanınmış muğam ifaçılarının iştirakı ilə ustad konsertləri də olub.

Bundan başqa, bir həftədir ki, Bakıda IV Beynəlxalq Piano Festivalı davam edir. Tanınmış caz pianoçusu və bəstəkar, Əməkdar artist Şahin Növrəslinin təşəbbüskarı olduğu bu möhtəşəm bayrama dünyanın 10 ölkəsindən sənətçilər təşrif buyurub. Fransanın məşhur caz-divası Mina Aqossinin kvartetinin, Türkiyənin “Altera Ensemble” qrupunun konsertləri, “Caz gecəsi”, Zaza Xutçişvilinin, Simon Raabın, Liz Rasanın, Mike Del Ferronun, Yeganə Axundovanın çıxışları, gənc istedadların “Gələcək bizik” performansı, sərgilər, ədəbi müsabiqə və cem sessiyaları unudulmaz təsir bağışlayıb. Festivalın son akkordları iyunun 28-də vurulacaq.

Görünən budur ki, Azərbaycan dünyanın nəbzi musiqi ilə vuran gözəl məkanıdır. Paytaxtımız musiqi xadimlərinin adlarını daşıyan küçə və prospektlərinin, məktəblərinin, mənzil-muzeylərinin sayına görə, bəlkə də, dünyada 1-cidir. Bakıda Musiqi Mədəniyyəti Dövlət Muzeyi də var və 40 ilə yaxındır ki, fəaliyyət göstərir.

Qoy, dünyadan musiqi sədaları əskik olmasın! Musiqilər səslənsin, döyüş topları (indiki halda raketlər) sussun!

***Ə.DOSTƏLİ***
***XQ***



# Samuxda Ərik Festivalı

## *Bu dadlı və şəfalı nemətin şərəfinə 2-ci dəfə təntənə qurulur*

**Əslində, bu festival keçən il ilk dəfə keçiriləndə müxtəlif fikirlərə, disskusiyalara, hətta mübahisələrə səbəb oldu. Biri dedi ki, ən çox ərik yetişdirilən bölgə Naxçıvanın Şərur, Ordubad rayonlarıdır. Başqa birisi Goranboyun adını çəkdi. Hətta Bərdənin, Şəkinin, Tərtərin adları sadalandı, Samuxun isə yox. Lakin bircə nəfər demədi ki, ola bilsin həmin rayonlarda ərik Samuxdakından çox yetişdirilir, amma onu rayonun brendinə çevirmək istəyən, ilk dəfə belə bir festival keçirmək barədə təşəbbüs irəli sürən rayon Samuxdur axı. Niyə də alqışlamayaq, "sağ olun" deməyək. Nəcib təşəbbüs hamı tərəfindən müdafiə olunsa, daha yaxşı deyilmi?**





Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev dedi ki, ikinci festivala ciddi hazırlaşıblar. Rayonda ərik sahələri hər il genişləndirilir. Bir il qabaq Azərbaycanda ən çox ərik əkilən 5 rayon olub ki, onların arasında Goranboydan sonra Samux ikinci yeri tutur. Cənab Prezidentimiz İlham Əliyevin qeyri-neft sektorunun inkişafı istiqamətində gördüyü işlər, eyni zamanda kənd təsərrüfatı sahəsinə diqqət və qayğısı nəticəsində rayonlarda, o cümlədən bizim Samuxda bağçılıq ildən-ilə inkişaf edir. Hazırda rayonumuzun ərik bağlarında 20 sorta yaxın ərik yetişdirilir.

Onu da qeyd edək ki, Samuxda Ərik Festivalının keçirilməsi təşəbbüsünü Firdovsi Əliyev özü irəli sürüb və rayon əhalisi, xüsusilə fermerlər, kiçik sahibkarlar da bu təşəbbüsü bəyənib və müdafiə ediblər. Qeyd olunub ki, bu həm də gözəl təbiəti, tarixi abidələri, qızıla bərabər torpağı olan Samuxun turizm potensialını göstərmək, təbliğ etmək, yeni turizm marşrutlarının salınması baxımından çox səmərə verə bilər.

İndi yenə bütün diqqət Samuxa yönəlib. Bu gün rayonda ikinci "Ərik Festivalı"dır. Samux şəhəri, Heydər Əliyev prospektində, müasir dizaynda yeni salınan, artıq rayon sakinlərinin və qonaqların sevimli istirahət guşəsinə çevrilən parkda təşkil olunan "Ərik Festivalı" və "Aqrar Biznes Festivalı"nda milli mətbəximizin təamları, fermerlərin yetişdirdikləri müxtəlif növ ərik məhsulları, onların mürəbbəsi və şirələri təqdim olunur.

Festivalın keçirilməsində məqsəd həm də fermerlərin yetişdirdiyi ərik növlərini nümayiş etdirməklə fermer və sahibkarlar arasında işgüzar əlaqələri genişləndirmək, eyni zamanda destinasiyanın aqroturizm potensialını canlandırmaq, ərik məhsulunun Samux rayonu üçün brendləşməsinə, rayonun sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərməsini yaxşılaşdırmaqdan ibarətdir.

Festival çərçivəsində qonaqlar Samux rayonunda fəaliyyət göstərən təsərrüfat sahələrinə də baxış keçirir, istehsal olunan məhsullarla tanış olurlar. Aqrar Biznes Festivalında isə kənd təsərrüfatı təyinatlı qurğu və avadanlıqlar, müasir yeni texnologiyalar nümayiş olunur, aqrar sahədə fəaliyyət göstərən texnika, gübrə, toxum və dərmanlar sərgilənir.

Xatırladaq ki, ərik qurudulmuşu, yağı və hətta toxumu ilə şəfa verir. Tərkibində çoxlu A, B, C, E, K və P vitaminləri var. Ərik həm də fosfor, kalsium, kalium və dəmir baxımından çox zəngindir. Diabetdən xərçəngə, artıq çəkidən iltihaba qədər bir çox xəstəliklə mübarizə aparır.

Sonda bildirək ki, Samux rayonu tarixən ərik yetişdirilməsi ilə məşğul olub. Gəncə bazarlarını, həmçinin Bakı şəhərini bu məhsullarla təchiz edib. İndi isə onu rayonun brendinə çevirmək məqamıdır. Buna samuxluların haqqı çatır. Həm məhsulunun dadı, həm bolluğu, həm də insanlarının həddindən artıq zəhmətkeşliyi ilə. Uğur olsun!

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Samux rayonu**

Sərgi salonlarında

# "Gizli sirlər"in aşkar təqdimatı



**Xətai Sənət Mərkəzində gənc rəssam-şairə Nigar Yunusun "ƏSRARİ" adlı fərdi yaradıcılıq sərgisi təşkil olunub. Ziyarətçilərə müəllifin fərdi sərgi kataloqu və şeirlər kitabı təqdim olunub. Ekspozisiyada sənətçinin müxtəlif dövrlərdə yaratdığı qrafika əsərləri ilə yanaşı, baxımlı dizayn nümunələri də yer alıb.**



Nigar Yunus yaradıcılıq hesabatı haqqında XQ-yə bildirdi:

– Sərgidə, ümumilikdə, 99 əsər nümayiş olunur. 7 rəngkarlıq, 92 qrafika-dizayn əsəri daxildir. Son 2 ildə albom seriyaları ilə məşğul oluram. Rəngli daşlar, kəpənəklər, dibçək bitkiləri, lələklər və s. ibarət fərqli rəsm nümunələri ərsəyə gətirirəm. Təqdim etdiyim kataloq da "Albom seriyaları" adlanır. Sərgiyə 2020-ci ildə nəşr olunmuş "Ağ və qara şeirli dünyam" adlı kitabımı da təqdim etmişəm. Bu sərgimi şagirdlərimə həsr etmişəm.

Qeyd edək ki, Xalq rəssamı Qəyyur Yunusun ailəsində həyata göz açan Nigar sənətşünas və ekspert kimi də fəaliyyət göstərir. O, rəngkarlıqda, əsasən, yağlı boya texnikasına üstünlük versə də, daha çox kağız üzərində qarışıq texnikada işləyir. Sənətşünas öz üslubunu "Əsrari" adlandırır. Şeirlərini də "Əsrari-nihan" (gizli sirlər) təxəllüsü ilə yazır. Özünün dediyinə görə, bu sözü Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərindən götürüb. Nigar Yunus 100-ə yaxın qəzəlin müəllifidir.

***Fidan SALMANOVA***
***XQ***

Qayıdışın akkordları

# Düşmənlə döyüşdən bilik savaşına

## *Qarabağ Universitetinin qazi tələbəsi*

**İlqarla görüşümüz təsadüfi olmadı. Şanlı qələbələrimizin tərəqqi timsalına çevrilən Qarabağ Universitetində müəllimlər də, tələbə yoldaşları da fəxrlə onun adını çəkdilər, haqqında xoş sözlər danışdılar.**



Dedilər ki, mühəndislik fakültəsinin inşaat ixtisası üzrə I kurs tələbəsi İlqar İsgəndərli təhsil həyatına ordu sıralarından gəlib. Antiterror əməliyyatları zamanı Xankəndin, ilk daxil olan döyüşçülərdəndir.

Necə deyərlər, dünən düşməndən azad etdiyi yerdə indi silahını kitabla, dəftər, qələmlə əvəzləyib, elm savaşındadı. Bütün bu deyilənlərdən sonra Qarabağ Universitetinin hələlik yeganə "döyüşçü-tələbə"si olan İlqarla görüşüb həmyaşıdları üçün nümunə olan ömür yoluna birlikdə nəzər saldıq. Onu dəyərli oxucularımıza daha yaxından tanıtmaq üçün həmsöhbət olduq.

İmtahanlara hazırlaşdığı üçün başı oxumağa qarışsa da, dəvətimizi qəbul edib universitetə gəldi, auditoriyalardan birində oturub söhbətləşdik.

Öncə qeyd edək ki, gözlərindən Vətən sevgisi, sadəlik, bir az da utancaqlıq yağan İlqarın tərbiyəsi də, vətənpərvərliyi də elə ilk tanışlıqdan özü haqda xoş təəssürat yaradır. İstər-istəməz qürur hissi ilə Azərbaycanımızın gələcəyinin etibarlı əllərdə olduğunu, Vətənimizi daha böyük uğurların, qələbələrin gözlədiyini düşünürsən.

Öyrəndik ki, İlqar İsgəndərli 2001-ci ildə Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olub, orada şəhid Vilayət Cəfərov adına orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra 2019-cu ildə həqiqi hərbi xidmətə yollanıb, zəfər dastanımızın şanlı səhifələrinin yazıldığı 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanda xidmət edib. Xidmətini başa vurduqdan sonra evə dönsə da sonsuz vətənpərvərliyi, ərazi bütövlüyümüzün tam bərpa edilməsi, suverenliyimizin təmin olunması uğrunda davam edən haqq savaşının iştirakçısı olmaq, yenidən orduya qayıtmaq qərarına gəlib.

Həmin vaxt yeni yaradılan komando birliklərinin kurslarına qəbul edilib, 75 gün davam edən ağır təlimlərdən uğurla keçərək kursu üçüncülüklə bitirib. Bununla da kiçik çavuş rütbəsi ilə komando bölüyünün kəşfiyyatçısı kimi xidmətə davam edib. Müddətdən Artıq Xidmət Edən (MAXE – M.R.) hərbi qulluqçu İlqar İsgəndərli "N" saylı hərbi hissəsinin tərkibində 2022-ci ildə ordumuzun şərti sərhəddə Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını almaq məqsədilə keçirdiyi sentyabr döyüşlərinin iştirakçısı olub. Bir il sonra, 2023-cü ildə sentyabrın 19-dan 20-ə keçən gecə isə Qarabağda erməni separatçılarına qarşı antiterror tədbirləri zamanı xidmət etdiyi taborun tərkibində Xankəndiyə ilk daxil olanlar sırasındadır. Vətənimizin bu əsrarəngiz gözəlliyə malik bölgəsinə dərin sevgisi, bağlılığı da həmin vaxtdan daha da qüvvətlənib.

Bəs bir komando kəşfiyyatçısı necə oldu ki, Qarabağ Universitetinin tələbəsinə çevrildi? Axı ali məktəbə daxil olmaq üçün uzun müddət hazırlaşmaq, əksər hallarda xüsusi müəllimlərdən dərs almaq lazım gəlir? İlqar suallarımıza cavab olaraq bildirdi ki, hazırda təhsil aldığı ali məktəbin yaradılması xəbərini hərbi xidmətdə olarkən eşidib və çox sevinib:

– Möhtərəm Prezidentimizin Qarabağ Universitetinin yaradılması haqqında sərəncamı mənə yaxşı mənada sürpriz oldu. Çox sevindim ki, bu qədər qısa vaxtda Xankəndidə universitet fəaliyyətə başlayacaq. Antiterror tədbirləri zamanı Xocalı, Şuşa, Xankəndi istiqamətlərində olmuşdum. Buralar həqiqətən cənnəti xatırladır, havası, suyu, mənzərələri möcüzədir elə bil. Çox bağlanmışam bu yerlərə. Ona görə də qərara gəldim ki, bəxtimi sınayım, bacarsam ancaq və ancaq Qarabağ Universitetinə daxil olum. Ordudan təxris olundum, hazırlaşdım, Allaha şükür, arzuma çatdım. Bu gün artıq fəxrlə deyirəm ki, mən Qarabağ Universitetinin ilk tələbələrindən biriyəm!

Yəqin, "döyüşçü-tələbə"yə müəllimlərin, tələbə yoldaşlarının münasibəti də fərqli olar? İlqar gülümsənərək bildirdi ki, bəli, elədir, xüsusi hörmətlə yanaşırlar. Ancaq bu, onun məsuliyyətini artırır, daha yaxşı oxumasına, nümunəvi tələbə olmasına ruhlandırır. Məhz buna görə ilk semestri zərbəçi kimi başa vurmuş həmsöhbətim hazırkı imtahanlardan da yüksək ballar toplamaqdadır. Məqsədi yenə ən azından zərbəçi olmaqdır.

Sonda İlqar İsgəndərli Xankəndidə onlar üçün yaradılmış şəraitdən də, təhsilin səviyyəsindən da razı olduğunu dedi, gələcəklə bağlı arzularını dilə gətirdi:

– Mən də ona görə inşaat mühəndisi ixtisasını seçmişəm ki, təhsilimi bitirib ixtisaslı kadr kimi Vətənimə xidmət edim, Qarabağda həyata keçirilən tikinti-quruculuq "savaş"ının iştirakçısı olum. Elə gələcəkdə də ailə qurub burada yaşamaq istərdim. Çünki biz bu yerlərin əsl sahibləriyik!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*Könüllü Tibbi Sığorta Xidmətinin satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin könüllü tibbi sığorta xidmətinin satın alınması üçün açıq tenderində iştirakçılar veronika.oborskaya@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 16 iyul 2025-ci il saat 14.00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Veronika Oborskaya, İnnovativ və marketinq məhsullarının təchizatı şöbəsinin layihə rəhbəri, veronika.oborskaya@azal.az, iş – (+99412) 4972600 daxili 4258.

"Puta-Nəqliyyat-2" ASC səhmdarlarının nəzərinə!

5 avqust 2025-ci il saat 12.00-da "Puta-Nəqliyyat-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyətinin hesabatı və illik hesabatların təsdiqi.
2. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Ünvan- Bakı şəhəri, Qaradağ rayonu, Puta qəsəbəsi, Qobu-Güzdək-Puta yolunun 3-4-cü kilometrliyi 3, inzibati bina.

***İdarə heyəti***

"Azərelektroterm" ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Azərelektroterm" ASC-nin nizamnaməsinə əsasən, səhmdarların növbəti illik ümumi yığıncağının məsafədən (onlayn qaydada) keçirilməsi 12 avqust 2025-ci il saat 11.00-da nəzərdə tutulur.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2024-cü il üzrə illik maliyyə hesabatının təsdiq edilməsi.
2. Cəmiyyətin baş direktorunun vəzifədən azad edilməsi və yeni baş direktorun seçilməsi.

Qiyabi keçirilən ümumi yığıncağın gündəliyinin materiallarını və əlavə məlumatları "Azərelektroterm" ASC, Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi (keçmiş 1222-ci küçə) 12 nömrəli ünvandan əldə etmək olar.

Əlaqə telefonu –(070)-565-75-18.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 126 (30820) 21 iyun 2025-ci il, şənbə

İdrakın kodları

# Rəqəmsal kainat: Biz simulyasiyadamı yaşayırıq?

VII YAZI

## 1. Kodlaşdırılmış reallıq nəzəriyyəsi



2003-cü ildə filosof Nick Bostrom tərəfindən irəli sürülən məşhur tezisə görə, texnoloji inkişaf etmiş bir sivilizasiya öz əcdadlarının həyatını simulyasiya edə bilər. Yəni biz, superkompüter tərəfindən idarə olunan bir simulyasiyanın içində yaşaya bilərik.

Bu fərziyyəyə görə, indiki reallığımız "orijinal" deyil, kodlaşdırılmış və müəyyən edilmiş reallığın surətidir. Bəs belədirsə, kod hardadır? Və onu kim yazıb?

## 2. Rəqəmsal metafizika

Əgər reallıq kodlaşdırılıbsa, bu zaman varlıq anlayışı maddi əsasını itirir. Hər şey – zaman, məkan, insan bədəni – informasiyaya çevrilir. Bu isə klassik fəlsəfənin təməl suallarına yeni cavablar verir: əşya nədir, zaman nədir, insan kimdir?

Rəqəmsal metafizika iddia edir ki, biz maddədən yox, informasiyadan ibarətik. Və bu informasiya – kiminsə kompüterində çalışan kodun bir hissəsidir.

## 3. Kainat superkompüter metaforası

Kainat bir superkompüter kimi davranırmı? Fizik Max Tegmark və digər alimlərə görə, bəli. Kainatın davranışları, sabitləri və qanunları – sanki riyazi kodlar şəklində işləyir. Kvant fizikasında baş verən hadisələrin təsadüfi deyil, proqramlaşdırılmış görünməsi də bu fikri gücləndirir.

Bəzi nəzəriyyələrə görə, Planck uzunluğu, işıq sürəti və digər sabitlər – kodun "proqram parametrləri"dir. Və biz bu kodun içində fəaliyyət göstərən proseslərik.

## 4. Son söz: Kodu oxuyan kimdir?

Əgər kod varsa, deməli, onu yazan və oxuyan da var. Kod öz-özünə yazılmaz. Hər kodun arxasında bir niyyət, hər niyyətin arxasında bir şüur dayanır.

Əgər bu kainat simulyasiyadırsa, o zaman biz onu yalnız maddi deyil, mənəvi olaraq da dərk etməliyik. Çünki kodun içində insanın sualı var: "Mən kiməm və hardayam?"

Bəlkə də bir gün o kodun başına dönüb, özümüzü oxuyacağıq. O zaman anlayacağıq: kodun içindəki bizik, amma kodun üstündəki Odur.

*Oğuz ARİF*

Duyğu qanadlarında

# Nar ağacı, nar çiçəyi

**Gözəl üzləri həyadan rəng verib, rəng alanda nar kimi qızaran gördüm. Bağçamda gül açanda gördüm narın bahar ömrünü. Gülü gül qoxuyur, meyvəsi cənnət. Qaməti də zərifdi, nur yağan camalı da. Gül açanda elə bil, nur ipəyə bürünmüş gəlindi.**



Əkdiyim nar ağacları ilk dəfə çiçək açanda ürəyimdə qəribə, kövrək hisslər baş qaldırmışdı. İnsanın öz əlləriylə əkib becərdiyi bağ-bağça da ömrə sevinc gətirir. İlin hər fəslində bağçanda gül görəndə bu torpaq, bu yer səni daha çox özünə çəkir. Daha çox əkib-becərməyi arzulayırsan. Arzu da bir ömürdür, Tanrım!

Bağçamdan nar gülü, nar çiçəyi könüldaşım kimi mənə baxır. Başdan-başa könlüm boyu çiçək açıbdır. Yarpaq yaşıl, çiçəklər qıpqırmızı. Elə bil, nar ağacının canına köz düşüb. Bir sevda havası vardı canında. Meh əsdikcə al-yaşılın içində çiçək-çiçəklə öpüşür. Baxanda duyğulara qərq olur insan.

Elə bu yaşımda da uçub gedən illərin səsi gəlir qulağıma. Hələ uşaqlıqdan yerdə gülü, göydə ulduzu sevdim. Gecələr göy üzü ilə dərdləşib, yenicə qönçələnmiş çiçəklərlə, ulduzlarla danışardım. Ürəyimdə kövrək, isti duyğular oyanırdı.

İndi o günlər yadıma düşəndə yaddaşım göynəyir. Uşaqlar ağaclardakı quş yuvalarını dağıdanda hirsimdən ağlayırdım. Onların bu hərəkətindən könlüm sınır, duyğularım yaralanırdı. Amma nar ağaclarının sıx budaqları arasında quşlar yuva quranda onu görmürdülər deyə, quşların yuvası toxunulmaz qalırdı. Nar ağacı quşlara qucaq açır, quş yuvalarını dəcəl uşaqlardan qoruyurdu. Şəfqətli yay günlərində, ata evimizin həyətində al-qırmızı don geyən o nar ağacları hərdən yuxuma girirdi. Nağıllı, əfsanəli nar ağacları ömrümə rəng qatmışdı. O nağıllar mənim kiçik qəlbimə, körpə xəyalıma qanad verirdi. Könlümün xatirələr qovluğunda uşaqlıq çağlarımı kitab kimi vərəqləyəndə indi-indi nağılla gerçəkliyi bir-birindən ayırd edə bilirəm.



...Bakı kəndlərinin birində, balaca bir bağ evimiz var. Sanki ilahi duyğudan, zərif naxışdan yaranıb. Orada ilk dəfə əkdiyim nar ağaclarını dostum Gündüz müəllim Məzrəlidən nar çubuğu şəklində gətirmişdi. İndi böyüyüblər, boyu boyuma çatır. Mən onların boyunu sevə-sevə, nazını çəkə-çəkə böyütmüşəm. Axı, güllər sığal istəyir, ağaclar qayğı gözləyir. Nar ağaclarım körpə nübar çağında çiçək açmayanda qəlbim üşənirdi. Çünki barsız ağac uğursuz ömür kimidir.

Evimizin həyətində yaşıllıqla, gül-çiçəklə əhatə olunmuş balaca bağçamız ilin hər fəslində könül oxşayır. Təqaüdə çıxandan sonra meylimi bu bağçaya salmışam. Hərdən ürəyim təklik istəyəndə, şəhər tünlüyündən uzaqlaşıb ora qədəm basanda ovqatım tamam dəyişir. Ruhuma çiçək ətri çilənir. Təkliyin sultan çağında suların səsinə qulaq kəsilirəm.

Hər həftə çiynimdə heybə, torpağa sərilən işıq yolu ilə pay-piyada bağa gedirəm. Könül yolu uzandıqca uzanır. Ürəyimlə gözüm özümdən qabaq gedir. Orada sehirli aləmin gözəllikləri ilə əhatə olunmuş meynələrlə, günəbaxanlarla, nar çiçəkləri ilə danışıram. Təbiətin naxışları ürəyimdə təsəlliyə çevrilir. Bağda sinədolusu nəfəs alıram, zərifliklə dolu təbiətdə fikirlər içində özümlə baş-başa qalıram. Baxçadan ayrılanda da nəzərlərimi gözəlliklərdən çəkə bilmirəm. Neçə-neçə sətiraltı fikir yatır hər gülün, çiçəyin qönçəsində. Duyğu-düşüncələrimin bütün məzmununu, məğzini özündə saxlayıb, məni buraxmır. İlkin ünvanımız da, son mənzilimiz də torpağa bağlıdır. Ana torpağın qüdrətinə, qəlbimin hərarətinə baxın və zərif duyğuların möhtəşəmliyini görün.

Yazılı mənbələrdə oxuyuruq və görürük ki, əbəs yerə narı meyvələrin şahı adlandırmayıblar. Deyilənə görə, padşahların tacının forması nar tacının formasından götürülüb. Nar təkcə gözəlliyinə, dadına görə deyil, həm də faydasına görə meyvələrin şahı sayılır. Hələ qədim zamanlardan nar Şərqdə böyük məna kəsb edirdi. Məhəmməd (s) Peyğəmbər öz sələflərinə nar meyvəsini yeməyi tövsiyə edərək deyirdi ki, nar insanın qəlbini paxıllıqdan və nifrətdən təmizləyir.

...Gözəlliyə könül verib, nar ağacından dadlı duyğularla ayrılırdım. Günəşin şəfəqləri altında elə gözəl və yaraşıqlı görünürdü ki...Duruşunda nazlı gözəllərin bəxtəvərliyi duyulurdu. Şair Eldar Baxış öz isti şair nəfəsilə "Nar ağacı, nar çiçəyi" aşıq mahnısnın dillər əzbəri elədiyi gözəl nar çiçəyini daha da gözəlləşdirib:

**Nar gülü, nar çiçəyi –**
**Axar suyun göyçəyi...**

Nar ağacına, nar çiçəyinə çox mahnılar bəstələnib. Hamısı da gözəldir. Amma uzun illərdən bəri əzbərimdə yaşayan bu misralar məni duyğu qanadlarında gəzdirir. Bu da nar gülü, nar çiçəyi üçün bəstələnmiş ən gözəl nəğmələrdən, ən şirin təranələrdən biridir.

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

İdman

# Ardıcıl 3-cü qələbə



**Dünən Azərbaycanın oğlanlardan ibarət U-14 millisi Qazaxıstanın Atrau şəhərində təşkil olunmuş "Airom Cup" beynəlxalq basketbol turnirində 3-cü oyununu keçirib.**

Azərbaycan Basketbol Federasiyasının mətbuat xidməti xəbər verir ki, yığma bu dəfə Qazaxıstanın "Airom" klubu ilə qarşılaşıb. Oyun Azərbaycan təmsilçisinin 89:32 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, bununla da U-14 seçməmiz turnirdə ardıcıl 3-cü qələbəsini qazanıb.

# Kaori Sakamoto karyerasını bitirəcək



**Yaponiyalı fiqurlu konkisürən, üçqat Dünya çempionu və Qış Olimpiya Oyunlarının mükafatçısı Kaori Sakamoto 2026-cı ildə karyerasını bitirəcək.**

"Gündoğar ölkənin populyar "Nikkan Sports" saytı xəbər verir ki, idmançı məşqçiliyə başlamağı planlaşdırır. 26 yaşlı fiqurlu konkisürən 2022, 2023 və 2024-cü illərdə Dünya çempionu adını qazanıb. 2025-ci ildə keçirilən mundialı isə gümüş medalla tamamlayıb. Sakamoto həmçinin 2022-ci ildə Pekində təşkil edilən Qış Olimpiya Oyunlarında fərdi mübarizədə bürünc, komanda yarışında isə gümüş mükafatçı olub.

Qeyd edək ki, XXV Qış Olimpiya Oyunları 2026-cı il fevralın 6-dan 22-dək İtaliyada keçiriləcək.

# Messinin növbəti rekordu



**Lionel Messi ABŞ-ın "İnter Mayami" klubunun tarixinə düşüb. Belə ki, argentinalı hücumçu klub tarixində 50 qol vuran ilk oyunçu olub.**

Bu, klublararası dünya çempionatınnın II turunun A qrupunda baş tutan "Portu" ilə oyundan (2:1) sonra reallaşıb. Argentinalı futbolçu görüşün 54-cü dəqiqəsində cərimə zərbəsindən fərqlənib. Bu, Messinin "İnter Mayami"nin heyətində 50-ci qolu olub.

Qeyd edək ki, ABŞ klubunun bombardirləri siyahısında Luis Suares (33) ikinci, Leonardo Kampana (32) üçüncüdür.

*M.HACIXANLI*
*XQ*

Hava

# Əsasən, yağmursuz şənbə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər zəif duman olacaq. Cənub-qərb küləyi gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək, axşama doğru arabir güclənəcək.**



Havanın temperaturu gecə 19-22, gündüz 27-32 dərəcə isti olacaq. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz, atmosfer təzyiqi isə 756 millimetr civə sütunu təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 18-22, gündüz 31-36, dağlarda gecə 8-13, gündüz 15-20 dərəcə isti olacağı proqnozlaşdırılır.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3693
SİFARİŞ 1250
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00